Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 269 (7996) CÜMƏ AXŞAMI, 29 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Enerji sahəsində əməkdaşlıq davam edir

Xəzərin Azərbaycan sektorunda ümidverən, perspektivli hesab edilən karbohidrogen yataqları hələ çoxdur. Hazırda bir neçə perspektiv strukturda ölkəmizdə ən iri neft-qaz və ixrac layihələrinin əməliyyatçısı olan BP şirkəti (Böyük Britaniya) geoloji kəşfiyyat aparır. D230 blokunun birgə kəşfiyyatı və işlənməsi üçün Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) bu il aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Tereza Meyin iştirakı ilə SOCAR-ın və BP qrupunun rəhbərləri tərəfindən imzalanmışdır.

Həmin gün Prezident İlham Əliyev BP-nin baş icraçı direktoru Robert Dadli ilə də görüşmüşdür. “Şahdəniz” layihəsi üzrə görülən işlərlə bağlı fikir mübadiləsi aparılmışdır. Eləcə də “Şəfəq-Asiman” strukturu üzrə imzalanmış HPBS əsasında görülən işlərin intensivləşdirilməsinin əhəmiyyəti qeyd edilmişdir.

D230 bloku Xəzər dənizinin Azərbaycan sektorunun Şimali Abşeron hövzəsində yerləşir. Bloku sahildən Bakının şimal-şərq istiqamətində təxminən 135 kilometr (84 mil) məsafə ayırır. D230 təxminən 3200 kvadratkilometr ərazini əhatə edir. Blokun məhsuldar laylarının gözlənilən dərinliyi təxminən 3500 metrdir.

25 illik müddəti əhatə edən HPBS-yə əsasən, tərəfdaş şirkətlər iştirak payını tən yarıya bölürlər. Kəşfiyyat dövründə operator kimi BP çıxış edəcək. D230 blokunda geoloji kəşfiyyat işlərinin aparılması haqqında Qarşılıqlı Anlaşma Memorandumu sözügedən iki şirkət arasında 2016-cı ilin may ayında imzalanmışdır. HPBS imzalandıqdan sonra isə seysmik tədqiqat proqramı üçün planların hazırlanmasına başlanıb. Sazişin Milli Məclis tərəfindən ratifikasiya edilməsindən asılı olaraq müqavilə sahəsində ilk seysmik tədqiqatın 2019-cu ildə aparılması planlaşdırılır.

2014-cü il dekabrın 22-də SOCAR və BP arasında Abşeron yarımadasının ətrafındakı dayazsulu sahədə yerləşən potensial perspektiv strukturlarda birgə geoloji kəşfiyyatın aparılması və HPBS imzalanması Xəzərdəki ümidverən yataqların işlənməsi istiqamətində atılan mühüm addım idi.

Ardı 6-cı səh.

# Azərbaycan müəllimlərinin XV qurultayının iştirakçılarına

Hörmətli qurultay iştirakçıları!

Əziz müəllimlər və təhsil işçiləri!

Sizi - Azərbaycan müəllimlərinin XV qurultayının iştirakçılarını səmimi salamlayır, ölkəmizin bütün təhsil işçilərinə ən xoş arzularımı yetirir, hər birinizə çətin və şərəfli fəaliyyətinizdə yeni nailiyyətlər arzu edirəm.

Müəllimlərin bu ali məclisinin Azərbaycan Xalq Cümhuriyyətinin əlamətdar 100 illik yubileyi ilə bir vaxta təsadüf etməsinin rəmzi mənası vardır. Ölkəmizdə anadilli təhsil sistemi və təhsil quruculuğunun təməli məhz Xalq Cümhuriyyəti dövründə qoyulmuşdur. Xalq Cümhuriyyətinin varisi müstəqil Azərbaycan bu gün dinamik inkişaf tempinə malik dövlətlərdəndir. İqtisadiyyatımızın tərəqqisi ölkəmizdə təhsilin inkişafına da öz müsbət təsirini göstərmişdir. Sosial siyasətimizin əsas prioritetlərindən biri ölkəmizdə zamanın çağırışlarına cavab verən və beynəlxalq standartlara uyğun milli təhsil sisteminin qurulmasıdır.

“Bilik iqtisadiyyatı”na keçid və ölkənin modernləşməsi üçün həlledici amil kimi insan kapitalının inkişafını təmin edəcək “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın icrasına başlanılmasından beş il keçir. Bu müddətdə ölkəmizdə müasir təhsil quruculuğu istiqamətində uğurlu addımlar atılmış və Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası sürətlənmişdir. Ümumi təhsildə yeni proqramların tətbiqi başa çatdırılmış, tədrisdə müasir texnologiya və innovasiyaların istifadəsi genişlənmiş, “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” müvəffəqiyyətlə başa çatmış və bu günlərdə yeni “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” qəbul olunmuşdur.

Müəllim əməyinin stimullaşdırılması tədbirləri nəticəsində cəmiyyətimizdə müəllimin nüfuzu yüksəlmiş, istedadlı gənclərin müəllimlik peşəsinə marağı əhəmiyyətli dərəcədə artmışdır. Qazanılan uğurlar dövlətin təhsil sahəsinin davamlı inkişafına diqqət və qayğısının təzahürü, eyni zamanda, Azərbaycan müəlliminin fədakar əməyinin bəhrəsidir.

Ali məclisinizin təhsil sahəsində ötən dövr ərzindəki fəaliyyəti lazımınca dəyərləndirərək gələcək strateji hədəfləri düzgün müəyyənləşdirəcəyinə və ölkənin intellektual potensialını təhsilin inkişafı məqsədi ətrafında səfərbər edəcəyinə əminəm. İnanıram ki, müəllimlərimiz bundan sonra da vəzifələrinin öhdəsindən layiqincə gələcək, təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, ölkədə müasir təhsil sisteminin qurulması və insan kapitalının formalaşmasına töhfələr verəcək, gənc nəsli vətənpərvərlik, milli-mədəni irsə bağlılıq və azərbaycançılıq məfkurəsi ruhunda yetişdirəcək, yüksək peşəkarlığa və səriştəliliyə malik, rəqabətədavamlı mütəxəssislər hazırlanması üçün əzmlə çalışacaqlar.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2018-ci il*

# Aleksandr Lukaşenko İlham Əliyevi “daim etibar edilməli olan əsl dost” adlandırır

Belarusun İctimai Televiziyası Azərbaycan Prezidenti İlham Əliyevin Minskə səfərindən geniş reportaj yayımlayıb.



AZƏRTAC xəbər verir ki, reportajda Aleksandr Lukaşenkonun İlham Əliyevi necə böyük hörmətlə qarşılayıb yola saldığı diqqətə çatdırılır. Qeyd olunur ki, Belarus və Azərbaycan aralarında iki min kilometrdən artıq məsafə olmasına baxmayaraq, çox yaxın tərəfdaşlardır. Belarus Prezidenti azərbaycanlı həmkarını “daim etibar edilməli olan əsl dost” adlandırır.

“Belarus və Azərbaycan bütün istiqamətlərdə əməkdaşlığa hazırdırlar, dost ölkələr kimi bir-birinə kömək edirlər. Azərbaycan Prezidentinin bu səfəri dövlət başçılarının dostluğunu bir daha sübut etdi”, - deyə aparıcı vurğulayır.

Reportajda Azərbaycan ilə Belarus arasında münasibətlərin inkişafından ətraflı bəhs olunur. Qeyd edilir ki, Belarus üçün ağır vaxtlarda Azərbaycan daim ölkəyə dəstəyini nümayiş etdirib. Rusiya ilə enerji mübahisələri zamanı isə Belarusa ekspress-kreditlə yardım edib.

Prezident İlham Əliyevin səfər çərçivəsində Minskdə fəaliyyət göstərən Azərbaycan Ticarət Evinə də baş çəkdiyi qeyd edilən reportajda ölkəmizin milli məhsulları haqqında məlumat verilir. Eyni zamanda, Gəncə Avtomobil Zavodunda Belarusla birgə traktorun yığılması, Bakıda Belarus məhsullarının satışı ilə bağlı məlumatlar diqqətə çatdırılır.

# Hərbi büdcə yenə də artırılır

## İlham Əliyevin ordumuzun döyüş imkanlarının yüksəldilməsi ilə bağlı prioritetləri sürətlə reallaşır

Uzun illərdir ki, Azərbaycanın dövlət büdcəsi tərtib olunarkən bir neçə istiqamətdə xərclərin artırılması prioritet olaraq qalır. Hətta maliyyə-iqtisadi çətinliklərin baş verdiyi vaxtlarda da həmin xərclər azaldılmayıb. Əksinə, xərclər bölməsində azalma baş versə də, həmin sahələr üzrə ayırmalar artıb. Bunlardan biri sosial sahədir. Təsadüfi deyil ki, Azərbaycanın dövlət büdcəsi hər il tərtib olunarkən sosialyönümlülüyü ilə diqqəti çəkir.

### Müdafiə və təhlükəsizlik ölkə üçün daim əsasdır

Büdcə xərclərinin davamlı olaraq artdığı istiqamətlərdən biri də müdafiə və təhlükəsizlik sahəsidir. Artıq 12-ci ildir ki, respublikamızın hərbi büdcəsi 1 milyard manatı ötüb. Ümumiyyətlə, son 15 ildə Azərbaycan iqtisadiyyatında baş verən yeni keyfiyyət dəyişiklikləri fonunda ilk növbədə ölkəmizin müdafiə potensialının qüdrətlənməsi daha aydın görünür. İqtisadiyyatın güclənməsi hərbi imkanların artması üçün geniş imkanlar açır. Çünki iqtisadiyyatı güclü dövlətin ordusunun güclü olması qaçılmaz zərurətdir. Ötən 15 ildə baş verən sürətli inkişaf Silahlı Qüvvələrimizin güclənməsinə və modernləşməsinə də özünün müsbət təsirini göstərdi.

Ardı 6-cı səh.

# Xalq rəssamı Tahir SALAHOV:

## Sərt realizmdən romantizmə



Çoxəsrlik Azərbaycan təsviri sənətinin tarixində dünya şöhrətli görkəmli rəssam Tahir Salahovun yaradıcılığı xüsusi bir mərhələ təşkil edir. Özünün dərin kökləri etibarilə mənsub olduğu xalqın zəngin mənəviyyatına, keşməkeşli taleyinə və çoxəsrlik təsviri sənət ənənələrinə bağlı olan Tahir Salahovun rəngkarlıqda nümayiş etdirdiyi orijinallıq və davamlı müasirləşmə onu bənzərsiz fərqli rəssam kimi böyük sənətin geniş meydanına çıxarmışdır.

Qürur hissi ilə demək mümkündür ki, Tahir Salahov nəinki Azərbaycanda, dünya miqyasında böyük şöhrət qazanmış, özünün böyük sənət məktəbini yaratmışdır. Keçmiş Sovetlər İttifaqında və Qərbdə Tahir Salahov sərt realizm cərəyanının əsas yaradıcısı kimi qəbul olunmuşdur.

Azərbaycan təsviri sənətində Soltan Məhəmməd Təbrizi - miniatür məktəbinin yaradıcısı, Bəhruz Kəngərli - realist rəssamlıq məktəbinin banisi, Əzim Əzimzadə - mahir karikatura ustadı, Toğrul Nərimanbəyov - böyük kompozisiya rəssamı, Səttar Bəhlulzadə - rəngkarlığın şairi, Mikayıl Abdullayev, Oqtay Sadıqzadə - portret ustası, Maral Rəhmanzadə - mənzərə rəssamı, Elmira Şahtaxtinskaya - plakat rəssamı, Fərhad Xəlilov - avanqard məktəbin rəhbəri, Arif Hüseynov - qrafika rəssamlığının istedadlı yaradıcısı, Cavad Mircavadov - modernizmin, Arif Əziz - rəngkarlıqda “bəyaz dünya”nın, Sakit Məmmədov - opalizm xəttinin qurucusu, Ülviyyə Həmzəyeva - mifoloji baxışlara malik istedadlı rəngkar kimi böyük sənətdə özlərinə məxsus yol açmış, tanınmış və şöhrət qazanmışlar.

Xalq rəssamı Tahir Salahovun rəngkarlıqda açdığı sərt realizm üslubu tamamilə orijinal olub Azərbaycan təsviri sənətini yeniləşdirmiş və daha da müasirləşdirmişdir. Haqlı olaraq bu görkəmli sənətkarı orijinallığına və böyük xidmətlərinə görə dünyanın ən məşhur rəssamları ilə müqayisə edirlər. İftixar hissi ilə demək olar ki, onun adı Van Qoq, Pikasso, Klod Mone, Xaçisika Xakusai, Salvador Dali, Zurab Sereteli, Ayvazovski, Repin, Surikov və başqaları kimi dünya şöhrətli sənətkarlarla birlikdə çəkilir.

Azərbaycan rəssamlığında da Tahir Salahovun xüsusi yeri və özünəməxsus mövqeyi vardır. Obrazlı şəkildə demək olar ki, xalq rəssamı Tahir Salahov Azərbaycan təsviri sənətinin inkişafında Bəhruz Kəngərlidən sonrakı və Fərhad Xəlilovdan əvvəlki mərhələnin təkrarsız-bənzərsiz zirvəsidir.

Fikrimizcə, Azərbaycan musiqi sənətində Qara Qarayev, şeirdə Səməd Vurğun və Rəsul Rza, heykəltəraşlıqda Ömər Eldarov hansı zirvədə dayanmışdırsa, Tahir Salahov da sənət baxımından həmin yüksək mövqedə qərar tutmuşdur. Tahir Salahov Azərbaycan təsviri sənətinə dünya şöhrəti qazandırmış görkəmli rəssamdır.

Ardı 4-cü səh.

*Belarusun dövlət televiziyası:*

# “Elə bir sahə yoxdur ki, Belarusla Azərbaycan arasında əlaqə qurulmasın”

Belarusun dövlət televiziya kanalı Azərbaycanla münasibətlərə dair reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, reportajda Azərbaycan-Belarus əlaqələrinin inkişafı barədə danışılır.

Bildirilir ki, Bakı ilə Minsk yalnız dost deyillər, həm də bütün sahələrdə sıx əməkdaşlıq edirlər. Azərbaycan və Belarus prezidentləri İlham Əliyev və Aleksandr Lukaşenko arasında dostluq münasibətləri mövcuddur. Azərbaycan və Belarus etibarlı tərəfdaşlar, bir-birinə diplomatik qarantlardır.

“İki ölkə arasında dostluq münasibətlərinin əsası 25 il əvvəl qoyulub və o vaxtdan bu dövlətlər yaxın qohumlar kimi mehribandırlar. Elə bir sahə yoxdur ki, Belarusla Azərbaycan arasında əlaqə qurulmasın”, - deyə reportajda vurğulanır.

Telekanalın jurnalisti həmçinin Azərbaycanın və Belarusun birgə istehsal müəssisələri, birlikdə həyata keçirilən layihələr, ölkəmizin turizm potensialı, Bakının gözəlliyi haqqında ətraflı məlumat verir.

# Xalq rəssamı Tahir Salahova

Hörmətli Tahir müəllim!

Sizi - dövrümüzün böyük sənətkarını və tanınmış ictimai xadimi 90 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar arzulayıram.

Müasir rəssamlıq məktəbinin görkəmli nümayəndəsi olaraq Siz uzunmüddətli səmərəli və bənzərsiz yaradıcılığınızla zəngin mədəniyyət salnaməmizə yeni səhifələr yazmış, milli sənət xəzinəmizin qızıl fondunda özünə həmişəlik layiqli yer tutan əsərlərinizlə Azərbaycan təsviri sənətinə geniş şöhrət qazandırmısınız.

"Sərt üslub"un banilərindən biri kimi yaratdığınız sənət nümunələrində insan taleyi vasitəsilə dünyaya, həyata baxışınız və fəlsəfi düşüncələriniz rənglərin ən incə çalarları ilə dolğun ifadəsini tapmışdır. Azərbaycan incəsənətinin çoxəsrlik ənənələrini Avropa boyakarlıq məktəbinin nailiyyətləri ilə birləşdirən, mövzu, forma, janr əlvanlığı və estetik kamilliyi ilə seçilən ecazkar rəsmləriniz ülvi bəşəri dəyərlər və ali məqsədlər naminə humanist fikirlər təlqin edir. Heyrətamiz portret yaradıcılığınız sənətsevərlər tərəfindən daim rəğbətlə qarşılanmışdır. Vətənə məhəbbət dolu silsilə lövhələr, peyzajlar və natürmortlarınızda insanın təbiətlə dərin məna kəsb edən ahəngdar mənəvi vəhdətini əks etdirməyə müvəffəq olmusunuz.

Dünyanın mötəbər muzeylərini, məşhur qalereyalarını bəzəyən və şəxsi kolleksiyalarda saxlanılan əsərlərinizin, hər biri hadisəyə çevrilən fərdi sərgilərinizin Azərbaycan mədəniyyətinin ölkə hüdudlarından uzaqlarda təbliğində böyük rolu vardır. Milli rəssamlığın gələcək inkişafı üçün gənc fırça ustalarının yetişdirilməsi sahəsində xidmətləriniz təqdirəlayiqdir.

Sizin çoxşaxəli yaradıcılığınız və məhsuldar ictimai fəaliyyətiniz xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Siz müstəqil Azərbaycan Respublikasının ən ali təltiflərinə - 1998-ci ildə "İstiqlal" və 2008-ci ildə "Heydər Əliyev" ordenlərinə, 2015-ci ildə Heydər Əliyev mükafatına layiq görülmüsünüz. Çoxsaylı beynəlxalq mükafatlarınız da sənətinizə göstərilən ehtiramın parlaq təzahürüdür.

Əminəm ki, mədəniyyətimizin bugünkü simasının müəyyənləşməsində və dünya incəsənətinin inkişafında özünəməxsus mövqeyə malik sənətkar və şəxsiyyət kimi Siz Azərbaycan təsviri sənətinin şöhrətini bundan sonra da yeni zirvələrə ucaldacaqsınız.

*Ən xoş arzularla,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2018-ci il*

# Azərbaycanın xalq rəssamı cənab Tahir Teymur oğlu Salahova

Hörmətli Tahir Teymur oğlu!

Bu gün Azərbaycanda əlamətdar tarix - Böyük Ustad, planetar miqyaslı rəssam, gözəl pedaqoq və ictimai xadim Tahir Salahovun yubileyi qeyd edilir.

Hörmətli Tahir Teymur oğlu, Sizi haqlı olaraq təsviri incəsənətin canlı klassiki və bütöv bir üslubun banilərindən biri hesab edirlər. Sizin əsərləriniz dünya mədəniyyəti xəzinəsinə, XX və XXI əsrlərin təsviri incəsənətinin "qızıl fond"una daxildir. Onlar Azərbaycan rəngkarlığının inkişafında və daha geniş miqyasda bütöv bir dövr təşkil edir. Siz əsərlərinizdə altmışıncı illərin azadlıq ruhunu böyük ustad müdrikliyi ilə, təkrarolunmaz bənzərsizliyi həyatın bütün müxtəlifliyində görmək bacarığı ilə, şəksiz istedadı və ən yüksək ustalığı asanlıqla tanınan müəllif üslubu ilə heyrətamiz şəkildə birləşdirməyə nail olmusunuz. Bu, həqiqətən, əsrlər boyu yaşamağa qabil olan əsl sənətdir.

Hörmətli Tahir Teymur oğlu.

Ola bilsin, bunu deyənlər haqlıdır ki, həqiqi sənətkar yaşadığı dünyanı sevməlidir. Sizin yaradıcılıq dünyanız parlaq və rəngarəngdir. Onun fərqləndirici cəhəti doğma ölkənizə - Azərbaycana həqiqi, səmimi vətənpərvərlik, dərin və ülvi sevgidir.

Siz həm çoxsaylı həmvətənlərimiz, həm də dünya yaradıcı ziyalılarının nümayəndələri üçün ən yüksək insani keyfiyyətlərin nümunəsi olmusunuz və belə olaraq qalırsınız. Parlaq erudisiyanız, həssaslığınız və məsuliyyətiniz Sizə ətrafdakı insanların sevgisini və dərin hörmətini qazandırıb. Siz, hörmətli Tahir Teymur oğlu, sadəcə, böyük rəssam deyil, həm də heyrətamiz insan və gözəl müəllimsiniz. Dünya şöhrətli tanınmış ustad olmağınıza baxmayaraq, yaradıcı axtarış cəsarətini itirməmisiniz və yaradıcılıq enerjiniz əvvəlki kimi aşıb-daşır.

Hörmətli Tahir Teymur oğlu!

Yubileyiniz münasibətilə ən səmimi, ürəkdən gələn təbriklərimi qəbul edin. Sizə möhkəm cansağlığı, ailə səadəti, bizi, Sizin böyük istedadınızın pərəstişkarlarını sevindirmək üçün əmin-amanlıq və yeni zəfərlər arzulayıram.

Doğum gününüz mübarək.

*Səmimiyyətlə,*

***Mehriban ƏLİYEVA,***
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2018-ci il*

# T.T.Salahovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təsviri sənətinin inkişafında xüsusi xidmətlərinə görə Tahir Teymur oğlu Salahov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2018-ci il*

# C.Ə.Qasımova "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında Dövlət Təhlükəsizliyi Xidmətinin təhsil sahəsinin inkişafında xidmətlərinə görə Cəlal Əbil oğlu Qasımova "Əməkdar müəllim" fəxri adı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2018-ci il*

# Yardımlı rayonunun Yardımlı-Bozayran-Bürzünbül-Vərgədüz-Sırıq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İyirmi min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Yardımlı-Bozayran-Bürzünbül-Vərgədüz-Sırıq avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 9,0 (doqquz) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2018-ci il*

# Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında 2018-ci il sentyabrın 1-də Soçi şəhərində imzalanmış saziş təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2018-ci il*

# Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında 2018-ci il sentyabrın 1-də Soçi şəhərində imzalanmış saziş təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2018-ci il*

# "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1106-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3, I kitab, maddə 125; 2001, № 12, maddələr 731, 736; 2004, № 11, maddə 901; 2006, № 6, maddə 478; 2007, № 5, maddə 436, № 10, maddə 938; 2008, № 5, maddə 348, № 7, maddə 602; 2012, № 6, maddə 506; 2013, № 6, maddələr 599, 624; 2014, № 4, maddə 341, № 7, maddə 775; 2016, № 2, I kitab, maddə 200, № 12, maddələr 1994, 1995; 2017, № 5, maddə 720, № 12, I kitab, maddə 2229; 2018, № 1, maddə 20) 29-cu maddəsinin səkkizinci abzasına "fövqəladə" sözündən əvvəl "hərbi vəziyyət rejiminin tətbiqi," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1313-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1313-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2018-ci il*

# Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında 2018-ci il sentyabrın 1-də Soçi şəhərində imzalanmış saziş təsdiq edilsin.

2. Bu fərmanın 1-ci hissəsində göstərilən saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 4 avqust tarixli 173 nömrəli və "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 392 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1176-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 173 nömrəli Fərmanının 2-ci hissəsi (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 483; 2003, № 10, maddə 546; 2014, № 10, maddə 1192; 2017, № 7, maddə 1342) aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 1-ci hissəsinin on üçüncü abzasında, 40-cı maddəsinin 2-ci hissəsində, 52-ci maddəsinin 1-ci, 2-ci, 5-ci, 7-ci, 8-ci (hər iki halda), 9-cu, 10-cu (hər iki halda) və 12-ci hissələrində, 54-cü maddəsinin 1-ci hissəsinin səkkizinci bəndində, 55-ci maddəsinin 1.2-ci bəndində, 56-cı maddəsinin 1-ci hissəsində, 57-ci maddəsinin 1-ci və 3-cü hissələrində, 58-ci maddəsinin 2-ci, 4-cü və 7-ci hissələrində, 58-1-ci maddəsinin 1.2-ci bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin qanunun 4-cü maddəsinin 1-ci hissəsinin 1.1-1.3-cü, 1.6-1.9-cu (xüsusi elmi-ekoloji və bioloji əhəmiyyətli ətraf mühitin mühafizəsi obyektlərinin siyahısının təsdiq edilməsi hissəsində), 1.10-cu və 1.11-ci bəndlərində, 2-ci hissəsinin 2.1-ci (fəaliyyət istiqamətlərinə uyğun olaraq) bəndində, 16-cı maddəsinin ikinci hissəsində, 17-ci maddəsinin 3-cü hissəsində, 64-1.1-ci maddəsinin ikinci cümləsində, 66-cı maddəsinin 3-cü hissəsində və 79-cu maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin qanunun 52-ci maddəsinin 2-ci və 9-cu hissələrində, 54-cü maddəsinin 1-ci hissəsinin səkkizinci bəndində, 56-cı maddəsinin 1-ci hissəsində, 58-ci maddəsinin 2-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.4. həmin qanunun 4-cü maddəsinin 2-ci hissəsinin 2.1-ci (fəaliyyət istiqamətlərinə uyğun olaraq), 2.2-2.6-cı bəndlərində, 18-ci maddəsinin 3-cü hissəsində, 71-ci maddəsinin 1-ci, 2-ci hissələrində və 72-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir;

2.5. həmin qanunun 1-ci maddəsinin 1-ci hissəsinin on üçüncü abzasında, 40-cı maddəsinin 2-ci hissəsində, 52-ci maddəsinin 1-ci, 7-ci, 8-ci (birinci halda), 10-cu (hər iki halda) və 12-ci hissələrində, 55-ci maddəsinin 1.2-ci bəndində, 57-ci maddəsinin 1-ci və 3-cü hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

2.6. həmin qanunun 58-ci maddəsinin 4-cü və 7-ci hissələrində, 58-1-ci maddəsinin 1.2-ci bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulurlar;

2.7. həmin qanunun 52-ci maddəsinin 5-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, müalicə-sağlamlaşdırma yerlərinə və kurortlara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;

2.8. həmin qanunun 52-ci maddəsinin 8-ci (ikinci halda) hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur.".

2. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 392 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 615; 2001, № 10, maddə 640, № 12, maddə 755; 2002, № 1, maddə 52; 2003, № 10, maddələr 546, 585; 2007, № 2, maddə 87; 2008, № 8, maddə 719; 2009, № 10, maddə 785; 2014, № 5, maddə 477; 2016, № 2 (II kitab), maddə 251, № 8, maddə 1384) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. ikinci abzasdan "11-ci maddəsinin ikinci hissəsində," sözləri çıxarılsın;

2.2. onuncu abzas ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2018-ci il*

# Təhsilin inkişafı dövlət siyasətində əsas prioritetlərdən biridir

## Bakıda Azərbaycan müəllimlərinin XV qurultayı keçirilib












Noyabrın 28-də Bakı Konqres Mərkəzində Azərbaycan müəllimlərinin XV qurultayı keçirilib. AZƏRTAC xəbər verir ki, qurultay iştirakçıları əvvəlcə Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan vətən övladlarının xatirəsi anılıb, məzarları üzərinə güllər qoyulub.

Qurultay Azərbaycan Respublikasının Dövlət himninin oxunması ilə başlayıb.

Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin, vətənimizin müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin və Azərbaycan müəllimlərinin XIV qurultayından ötən dövr ərzində vəfat etmiş təhsil işçilərinin əziz xatirələrini bir dəqiqəlik sükutla yad ediblər.

XV qurultayda Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev, Baş nazirin müavini Əli Əhmədov, Milli Məclis Sədrinin müavini Bahar Muradova, dövlət və hökumət rəsmiləri, deputatlar, elm xadimləri və təhsil ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.

Təhsil naziri Ceyhun Bayramov iştirakçıları salamlayaraq Azərbaycan müəllimlərinin XV qurultayının işinə uğurlar arzulayıb.

Hesabat məruzəsi ilə çıxış edən Ceyhun Bayramov əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu təhsil islahatlarının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Nazir bildirib ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbulundan ötən 5 il ərzində ölkəmizdə təhsil sahəsində müsbət dinamika müşahidə olunub, bir sıra əsaslı nailiyyətlər əldə edilib. Cari il üçün "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan 140 ölkə arasında 69-cu yerdə qərarlaşıb, ölkəmizin mövqeyi 12 indikatordan 9-u üzrə yaxşılaşıb. Həmçinin təhsil indikatorları üzrə ciddi irəliləyişə nail olunub, Azərbaycanın göstəriciləri dünyanın bir sıra inkişaf etmiş ölkələrinin göstəricilərindən də yüksək olub. Belə ki, təhsilin kəmiyyət və keyfiyyət parametrlərinə əsaslanan bacarıqlar indeksi üzrə ölkəmiz ümumilikdə 54-cü yerə, bu kateqoriyanın tərkib hissəsi olan rəqəmsal bacarıqlar üzrə 15-ci, tədrisdə tənqidi düşüncə üzrə 27-ci, bacarıqlı işçilər tapmaq asanlığı üzrə 31-ci, məzunların bacarıqları üzrə 32-ci, ibtidai təhsildə müəllim-şagird nisbəti üzrə 48-ci yerə yüksəlib.

Həyata keçirilən islahatlar nəticəsində ölkədə müəllim peşəsinin nüfuzunun daha da artdığını deyən nazir ötən illər ərzində müəllimlik üzrə müraciət edənlərin sayında 3 dəfəyə yaxın artım qeydə alındığını diqqətə çatdırıb. Qeyd edib ki, son 5 ildə 18 min 136 müəllim işə qəbul olunub, kənd məktəblərində fəaliyyətə başlamış 11 min 600 nəfərə həvəsləndirmə tədbirləri tətbiq edilib.

Nazir bildirib ki, qəbul imtahanlarında 500 və daha çox bal toplayan abituriyentlər arasında müəllim ixtisasını seçənlərin sayı 2090 nəfərə çatıb, bu isə 2014-cü illə müqayisədə 2,3 dəfə artım deməkdir. Ümumi təhsil sistemində çalışan 142 mindən çox müəllimin diaqnostik qiymətləndirilməsi başa çatdırılıb, onların həftəlik dərs yükü 1,5 dəfə, vəzifə maaşı 2 dəfə artırılıb.

Son 5 ildə ölkədə 500-dən çox, 2003-2018-ci illər ərzində isə 3500-dək məktəb binasının tikildiyini və ya əsaslı təmir olunduğunu bildirən nazir bunun nəticəsində 1 milyondan çox şagirdin təlim şəraitinin əhəmiyyətli şəkildə yaxşılaşdırıldığını vurğulayıb.

Tədbirdə çıxış edən Baş nazirin müavini Əli Əhmədov ulu öndər Heydər Əliyevin "Mən dünyada müəllimdən şərəfli ad tanımıram" kəlamını xatırladıb. Baş nazirin müavini deyib ki, insanın taleyi, gələcəyi, öz ailəsinə, cəmiyyətə, dövlətə xidməti valideynlərin verdiyi tərbiyə ilə yanaşı, məktəbin və müəllimlərin verdiyi bilik və vərdişlərdən də bilavasitə asılıdır. Bu baxımdan müəllimlər, sözün həqiqi mənasında, həm insanın, həm cəmiyyətin, həm də dövlətin inkişafında çox mühüm vəzifəni yerinə yetirirlər. Təhsilin inkişafının dövlətin siyasətində əsas prioritetlərdən biri olduğunu vurğulayan Əli Əhmədov qarşıda duran vəzifələrdən də danışıb. O, qurultayın qərarlarının təhsil sisteminin daha da inkişaf etməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Milli Məclis Sədrinin müavini Bahar Muradova ötən beş ildə Azərbaycanda təhsil sisteminin uğurlarını yüksək qiymətləndirib. Qeyd edib ki, bu uğurlar, həmçinin Azərbaycan dövlətinin iqtisadi imkanlarının artmasının, regionda və dünyada mövqeyinin möhkəmlənməsinin və əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş təhsil siyasətinin bu gün uğurla davam etdirilməsinin nəticələridir. Bahar Muradova təhsil sahəsində qanunvericiliyin hər zaman diqqət mərkəzində olduğunu qeyd edib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov dövlətimiz tərəfindən təhsilə və təhsil işçilərinə xüsusi diqqət və qayğı göstərilməsindən danışıb. Bildirib ki, muxtar respublikanın şəhər, rayon və kəndlərində yeni-yeni məktəb binaları tikilib, təhsil müəssisələri müasir avadanlıqlarla təchiz olunub. 2017-2018-ci tədris ili Naxçıvan üçün uğurlu olub. Məzunlardan 1781-i ali məktəblərə, 615-i isə orta ixtisas təhsili müəssisələrinə qəbul edilib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev ölkəmizdə təhsil sisteminin inkişafında həyata keçirilən dövlət proqramlarından danışıb, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nı bu sahədə atılmış növbəti mühüm addımlardan biri kimi dəyərləndirib. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri təhsil işçilərinin sosial hüquqları, müəllimlərin sosial problemlərinin həlli, asudə vaxtlarının səmərəli təşkili istiqamətlərində görülən işlərdən danışıb və bu işlərin davamlı olacağını vurğulayıb.

Qurultayda çıxış edən Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bildirib ki, ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafı bütün sahələr üzrə yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasını tələb edir. Azərbaycan Prezidenti İlham Əliyevin təhsilə xüsusi önəm verdiyini vurğulayan Məleykə Abbaszadə deyib ki, respublikamızda bu sahə dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Dövlət İmtahan Mərkəzinin fəaliyyəti barədə ətraflı məlumat verən DİM Direktorlar Şurasının sədri bildirib ki, bu qurumun vəzifəsi ölkəmizdə həyata keçirilən mərkəzləşdirilmiş imtahanların təşkili və onun keyfiyyətinin təmin olunmasından ibarətdir. Bu ilin ötən 10 ayı ərzində DİM-in apardığı imtahanlarda ümumilikdə 641 min 517 nəfər iştirak edib. Bir sıra dövlət qurumlarının nümayəndələri ilə yanaşı, müxtəlif tədris müəssisələrindən on minlərlə müəllim mərkəzin əməkdaşları ilə birlikdə imtahanların idarə olunmasında iştirak edib.

Məleykə Abbaszadə əhaliyə DİM tərəfindən 7 milyondan çox elektron xidmət göstərildiyini diqqətə çatdırıb. Bu o deməkdir ki, imtahanda iştirak edən hər bir şəxs ən azı 10 dəfə DİM-in elektron xidmətlərindən faydalanıb.

Dövlət İmtahan Mərkəzinin tədris prosesində müəllimlərə dəstək vermək üçün bir sıra tədbirlər reallaşdırdığını bildirən DİM Direktorlar Şurasının sədri, eyni zamanda, bu il Bakı şəhəri üzrə 272, on dörd rayonda 60 elmi-metodiki seminarın təşkil olunduğunu vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov ümummilli lider Heydər Əliyevin təhsil sahəsinə daim böyük diqqət göstərdiyini, ulu öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən əzmlə həyata keçirildiyini bildirib.

Azərbaycanın bir çox istiqamətlərdə regional və qlobal liderə çevrildiyini qeyd edən rektor son 15 ildə ölkəmizdə davamlı və inklüziv inkişaf üçün iqtisadi baza yaradıldığını söyləyib. Bildirib ki, Azərbaycan son illərdə bir çox davamlı inkişaf göstəriciləri və sosial indikatorlara görə "Böyük iyirmilik" və "Böyük yeddilik" ölkələrinin əksəriyyətini üstələyir. Respublikamızın inkişaf göstəriciləri bir çox beynəlxalq təşkilatların rəsmi sənədlərində təsdiqini tapıb.

Rektor innovativ inkişaf strategiyasının reallaşdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın xüsusi rolunu vurğulayıb. Akademik Urxan Ələkbərov qeyd edib ki, ölkəmizin inklüziv cəmiyyət quruculuğu istiqamətində qazandığı uğurlarının başlıca amili təhsil və insan potensialının formalaşdırılmasıdır. Bütün nailiyyətlərin əsasında bilik, biliyin əsasında təhsil dayanır.

"McKinsey" şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri Kadir Sinan Köksoy Azərbaycanda bütün sahələrin, o cümlədən təhsil sisteminin uğurlarını vurğulayıb.

Qurultayda çıxış edən Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd tam orta məktəbinin direktoru Zamin Həziyev rəhbərlik etdiyi təhsil ocağında 100-dək şagirdin biliklərə yiyələndiyini, pedaqoji kollektivin 23 nəfərdən ibarət olduğunu bildirib. O, bu məktəbin Təhsil Nazirliyinin elan etdiyi birinci qrant müsabiqəsinin qalibi olduğunu xatırladıb. "Azərbaycan Prezidentinin bilavasitə diqqət və qayğısının real nəticəsi olaraq müasir infrastrukturun yaradıldığı Cocuq Mərcanlı kəndində hər addımda hiss edilən böyük ictimai-sosial canlanma mövcuddur. Həyat öz axarı ilə davam edir. Artıq üzərindən məcburi köçkün adı götürülmüş xeyli sayda əhalinin yaşadığı kəndimizdə insanların təhlükəsizlik, əmin-amanlıq şəraitində özlərinə rahat məişət qurmaları, əmək fəaliyyəti ilə məşğul olmaları üçün əlverişli imkanlar təmin edilib", - deyən Zamin Həziyev ümumtəhsil sahəsində görülən genişmiqyaslı işlərin Cəbrayıl rayonunda da vüsət aldığını bildirib. Qeyd edib ki, hesabat dövründə rayonun məzunlarından 1181 nəfəri ali məktəblərə qəbul olunub. On bir şagird respublika fənn olimpiadalarında qızıl və gümüş medallar qazanıb. Təkcə ötən il 342 nəfər ali məktəblərə qəbul olunub, həmçinin 29 məzun 600-dən yuxarı bal toplayıb. İki məzun orta məktəbi qızıl medalla başa vurub. Zamin Həziyev növbəti illərdə rayonun uğurlarında şəhid Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin də öz layiqli payı olacağına əminliyini bildirib.

Bakı Slavyan Universitetinin nəzdində Məktəb-Lisey Kompleksinin gənc riyaziyyat müəllimi Nigar Əliyeva ölkəmizdə gənclərin hərtərəfli inkişafına yaradılan geniş imkanlardan söz açıb. Qeyd edib ki, müəllimlik məsuliyyətli olduğu qədər şərəfli, çətin olduğu qədər maraqlı peşədir. Müəllim öyrətməklə yanaşı, daim öz üzərində çalışmalı və özü də öyrənməlidir. Dövrün çağırışlarına cavab vermək və gələcək nəsillərin daha xoşbəxt və daha sağlam yaşaması üçün gənc müəllimlərin mütaliə etməsi, təhlillər aparması, daha yaxşı öyrətmək üçün daha yaxşı araşdırma aparmaları vacib şərtdir.

Çıxışlarda XV qurultayın ölkəmizdə təhsil sisteminin inkişafına mühüm töhfələr verəcəyinə əminlik ifadə olunub, Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası, müəllimin nüfuzunun daha da artırılması ilə bağlı təkliflər irəli sürülüb. Vurğulanıb ki, ölkədə davamlı olaraq aparılan məktəb tikintisi, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi, müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi nəticəsində əməkhaqqı artımı, işə qəbulun şəffaf təşkili bu peşəyə marağı ilbəil artırır.

Qurultayda "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda müəyyənləşdirilmiş hədəflərə nail olunması istiqamətində əldə edilmiş uğurlar, eləcə də 2013-cü ilin dekabrında keçirilmiş Azərbaycan müəllimlərinin XIV qurultayından sonrakı müddətdə təhsil sistemində reallaşdırılmış tədbirlər və islahatlar müzakirə olunub, qarşıda duran yeni vəzifələr müəyyənləşdirilib.

Tədbir çərçivəsində, həmçinin Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüş və "Tərəqqi" medalı ilə təltif olunmuş 127 nəfər təhsil işçisinə dövlət mükafatları təqdim edilib.

Qurultay işini panel sessiyalarla davam etdirib. "Peşəyönümü işinin təşkili və peşə təhsilinin təbliği" mövzusunda sessiyada son beş ildə ölkəmizdə peşə təhsili sisteminin inkişafından danışılıb. Qeyd edilib ki, peşə təhsilinin maddi-texniki bazasının gücləndirilməsi və genişləndirilməsi istiqamətində dövlətimiz tərəfindən mühüm addımlar atılıb. Prezident İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda peşə təhsili ilə bağlı xüsusi müddəalar öz əksini tapıb, həmçinin 2016-cı ildə Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılıb. Peşə təhsilinin inkişafı ölkənin ixtisaslı kadrlara olan tələbatının ödənilməsi istiqamətində mühüm addımlardan biri kimi səciyyələnir. Ölkəmizdə peşə təhsili sistemində aparılan uğurlu islahatlar, peşə təhsilinin düzgün təbliği nəticəsində bu sahəyə maraq daha da artıb. Təhsil sistemində pedaqoji prosesin tərkib hissələrindən biri peşəyönümü işidir. Bu işin təşkilində ümumi məqsəd cəmiyyətin peşə maraqları və imkanları ilə əmək bazarının tələbatı arasında balansı müəyyənləşdirmək, gəncləri maraq və bacarıqlarına uyğun istiqamətləndirməkdir. Bu baxımdan peşə təhsili müəssisələri peşəyönümü işinin təşkilində və təbliğində yaxından iştirak edir. Peşə təhsili müəssisələrinin rasionallaşdırılması nəticəsində respublikamızda Peşə Təhsili mərkəzləri yaradılıb.

Qurultayın "Ümumi təhsil: bu günə və gələcəyə baxış. Ümumi təhsilin məzmunu", "Ümumi təhsil: bu günə və gələcəyə baxış. Şagird nailiyyətlərinin qiymətləndirilməsi", "Ümumi təhsil: bu günə və gələcəyə baxış. Müəllim və cəmiyyət", "Ümumi təhsil: bu günə və gələcəyə baxış. Ümumi təhsilin idarə olunması", "Ali təhsil: mövcud vəziyyət, perspektivlər", "Təhsildə innovasiyalar" mövzularında panel sessiyalarında ölkəmizdə müvafiq sahələrin inkişafı istiqamətində görülən işlərdən danışılıb, qarşıda duran vəzifələr müəyyənləşdirilib.

Sonda qurultayın qətnaməsi qəbul olunub.

Azərbaycan müəllimlərinin XV qurultayında ümumi təhsil, orta ixtisas və peşə təhsili müəssisələrindən 1400-ə yaxın, ali təhsil müəssisələrindən isə 200-dən çox nümayəndə iştirak edib.

Azərbaycan müəllimlərinin ilk qurultayı 1906-cı ildə keçirilib. Qurultay ənənəvi olaraq 5 ildən bir keçirilir. Müstəqillik dövründə Azərbaycan müəllimlərinin 5 qurultayı keçirilib.

Tahir Salahov - 90

# Xalq rəssamı Tahir SALAHOV:

## Sərt realizmdən romantizmə

*Əvvəli 1-ci səh.*



Böyük fırça ustası hələ sovet hakimiyyəti illərində bəlkə də rəssamlıq sənəti üçün təsəvvür edilməyən çətin mövzularla həyatın görünməyən və ya az görünən tərəflərini tünd boyalarla sənətdə ifadə etmək vəzifəsini ciddi bir iradə ilə həyata keçirmişdir. İstifadə etdiyi rənglərin tündlüyünə və ya təsvir etdiyi mövzuların gərginliyinə, həmçinin rəsmlərindəki çətin həyat notlarının bədii ifadəsinə istinad edərək, Tahir Salahovu sərt realizm cərəyanının yaradıcısı kimi qəbul edirlər. Hətta Azərbaycanda və keçmiş Sovet İttifaqı miqyasında rəngkarlıqda tədricən ardıcıllarının, davamçılarının, yaxud bənzərlərinin meydana çıxması ilə təsviri sənətdə Tahir Salahovun "surovıy realizm" - sərt realizm məktəbi yaranmışdır.

Xalq rəssamı Tahir Salahovun timsalında meydana çıxmış "surovıy stil" - "sərt üslub" sənət nəzəriyyəsi baxımından "sərt realizm" mənasını daşıyır. Metod və üslub ədəbiyyat və sənət cərəyanlarının istiqamətini müəyyən edən "izmin" əsas təzahür formalarından biri olduğu üçün Tahir Salahova





məxsus "sərt üslub" da elmi şəkildə "sərt realizm" deməkdir. Tahir Salahov özü də "sərt realizm" yaradıcılıq üslubunu və ya cərəyanını stalinizmdən sonra meydana çıxmış və həyat həqiqətlərinə əsaslanan bir yaradıcılıq istiqaməti hesab etmişdir. Onun fikrincə, "bu istiqamət Sovet İttifaqında 1950-ci illərin sonlarında, Stalinin ölümündən sonra yaranmışdır. O vaxta qədər hamı belə alışmışdı ki, təsviri incəsənət insanı şadlandırmalıdır. Ancaq bizim nəsil "istiləşmə" dövrünü (Xruşşov mərhələsini - İ.H.) keçmişdir və həqiqəti, o cümlədən sərt gerçəkliyi göstərmək istəmişdir. Lakin bu sərtlik - o da nikbinlikdir, ancaq həyatın reallıqlarından doğulur... Tədricən bu məktəb qəbul olundu".

Qüdrətli fırça ustası Tahir Salahov əvvəl SSRİ məkanında və Azərbaycanda, sonra isə Qərbdə və dünyada "surovıy stilin" - sərt realizmin əsas yaradıcısı hesab olunur. Bu, əslində sosialist realizmi ilə eyni olmayan, həyatın yalnız nikbin meyillərini deyil, cəmiyyətin sərt üzünü, insanın və onu əhatə edən mühitin gərgin məqamlarını da sənətdə canlandıran yeni tipli sənət istiqamətidir. Lakin Tahir Salahovun müraciət etdiyi mövzular sosialist realizminin "ənənəvi mövzu dairəsinə" uyğun olduğuna, yaradıcılığında dövr üçün aktual olan neft və fəhlə mövzuları üstünlük təşkil etdiyinə görə onun sovet təsviri sənətinin vahid yaradıcılıq metodundan fərqli bir sənətkar olduğu zahirən heç kəsin ağlına belə gəlməmişdir. Xüsusən, XX əsrin altmışıncı illərindən sonra "surovıy realizm" sosialist realizmi yaradıcılıq metodunun təzahür formalarından biri kimi təsəvvür olunmuşdur.

Əslində isə Tahir Salahovun yaradıcılığına aid edilən "surovıy stil" - "sərt realizm" anlayışı ədəbiyyatda və incəsənətdə sovet hakimiyyətinə qədər mövcud olmuş tənqidi realizm mənasını daşıyan və sovet gerçəkliyi üçün səciyyəvi olmayan bir sənət cərəyanı idi. Tahir Salahov istehsalat mövzusu fonunda yaratdığı böyük sənət şedevrləri ilə sosialist realizmi şəraitində tənqidi realist istiqaməti inkişaf etdirməyi bacarmışdır. Sadəcə vahid sosialist realizmi yaradıcılıq metoduna əsaslanan keçmiş sovet ideologiyası zamanında bunu - tənqidi realist olmağı açıq etiraf etmək mümkün deyildi. Bununla belə, Tahir Salahovun tənqidi realist rəssam olduğunu qeyri-rəsmi şəkildə olsa da, mütləq əksəriyyət həmişə qəbul etmişdir. Görkəmli sovet rəssamlarından Pavel Nikonov, Viktor İvanov, Qeliy Korjev və başqaları da sərt üslubda orijinal rəsm əsərləri çəkmişlər. Lakin bütövlükdə rəssamlıqda İttifaq miqyasında sərt realizm sənət məktəbini yaratmaq Tahir Salahova məxsus mühüm xidmətdir.

Təsviri sənətin ecazkar dili ilə ciddi ictimai mətləbləri yüksək səviyyədə ifadə etməyi bacarmaq Tahir Salahov sənətinin özünəməxsusluğunu müəyyən edir. Tahir Salahov təsviri sənətdə fikir, düşüncə, ideya, mövqe rəssamlığının qüdrətli yaradıcısıdır. Onun hər əsərinin sadəcə olaraq yaxşı, cəlbedici mövzusu və ya görüntüsü yox, bununla bərabər, daha çox öz mənası, fəlsəfəsi vardır. Bu mənada Tahir Salahov mütəfəkkir rəssamdır. O, mütəfəkkir sənətkar olduğunu sənət haqqındakı elmi-nəzəri görüşləri ilə deyil, təsviri sənətin, rənglərin dili ilə ifadə etdiyi dərin, sərt və müdrik fikirlərlə nümayiş etdirir.

Tünd rənglər, sərt cizgilər Tahir Salahovun rəsm əsərlərinin əsas bədii ifadə vasitəsidir. Seçilmiş mövzuların və obyektin ciddiliyi ilə rənglərin sərtliyi Tahir Salahovun sənətində bir-birini üzvü surətdə tamamlayır. Tahir Salahov dalğanı, qasırğanı, tufanı, vulkanı, təlatümü öz rəngində, bütün təbiiliyi ilə çəkməyi bacarır. Adam onun bir-birindən fərqli mövzularda çəkilmiş əsərlərinə baxanda özünü sanki həmin əsərlərdə təsvir olunan mühitdə və ya aurada hiss edir. Ona görə də Tahir Salahovun çəkdikləri kağızdan, kətandan qəlbə, düşüncəyə yol tapa bilir, tamaşaçı mühitinə fəal təsir göstərə bilir.

Xalq rəssamı Tahir Salahovun sənəti əslində onun yaradıcılığında aparıcı olan üç rəngin harmoniyası üzərində qurulmuşdur: qara, qırmızı və ağ. Doğrudur, Tahir Salahov digər rənglərdən də yerli-yerində istifadə etməkdə məharət göstərir. Lakin əsərlərindəki digər rəng effektləri onun sənəti üçün xarakterik olan qara, qırmızı və ağ rənglərin kölgəsində qalmış və bu əsas rənglərin "əlavəsi", çaları kimi köməkçi rənglər funksiyasını daşımış, ayrı-ayrı əsərlərdə aparıcı rənglərin ifadə etdikləri mənaların daha aydın və cəlbedici şəkildə çatdırılmasına yardımçı olmuşlar.









Tahir Salahov rəssamlıq fəaliyyətinə nisbətən açıq rəngdə çəkdiyi əsərlərlə başlamışdır. Onun 1957-ci ildə Surikov adına Rəssamlıq İnstitutunda tələbə ikən diplom işi kimi çəkdiyi "Növbədən qayıdarkən" adlı rəsm əsərində tündvari açıq rənglərdən istifadə olunmuşdur. Əslində diplom işi kimi əla qiymətə layiq görülmüş "Növbədən qayıdarkən" rəsmi Tahir Salahovun yaradıcılığı üçün xarakterik olan bir çox keyfiyyətləri özündə cəmləşdirir. Əvvəla bu, sonralar Tahir Salahovun yaradıcılığında geniş yer tutan Xəzər mövzusunun mükəmməl bir başlanğıcıdır. İkincisi, nisbətən açıq rəngdə çəkilməsinə baxmayaraq, bu əsərdə işdən qayıdan insanların yorğunluğu, gərginliyi və iradəsi bütün sərtliyi ilə ifadə olunmuşdur. "Növbədən qayıdarkən" rəsmi Tahir Salahovun yaradıcılığındakı sərt üslubun ilk klassik nümunəsidir. Üçüncüsü, əsasən açıq boya ilə çəkilmiş bu əsərdə sonralar Tahir Salahovun yaradıcılığında üstünlük qazanmış qara, qırmızı və ağ rənglərin ilkin cizgilərini görmək mümkündür.

Diqqətlə nəzər salınarsa, Tahir Salahovun yaradıcılığında uzun dövr ərzində qara rəngdən istifadə birincilik qazanmışdır. Sənətkarın daha çox müraciət etdiyi Xəzər nefti, istehsalat mövzusu, neftçi və fəhlə obrazları ilə yağlı qara boya bir-birini tamamlamışdır. Həm də Tahir Salahovun yaratdığı sərt realist üslub üçün də tünd və qara rənglərdən yaradıcı şəkildə istifadə etmək yerinə düşmüş, müraciət olunan mövzunun və ya obrazın əsas cizgilərini canlandırmağa xidmət etmişdir. Məşhur "Səhər eşelonu" (1958), "Neftçi" (1959), "Təmirçilər" (1960), "Qara Qarayev" (1960), "M.Ə.Sabir" (1962), "Qız qalası" (1969), "Yeni dəniz" (1970), "Nardaran kəndi" (1974), "Venetsiya. Böyük kanal" (1979), "Babək" baletinə eskiz" (1983), "Çikaqo" (1987), "Parisin payız görkəmi" (1989), "Firidun Şuşinskinin portreti" (1994) və sair kimi rəsm əsərlərində qara və ya tünd rənglər mövzunun bədii həllində aparıcılıq təşkil etmişdir. Nəticə etibarilə qara rəng Tahir Salahov sənətində həyatın dərinliklərinin təsviri, cəmiyyət hadisələrinə sərt sənətkar mövqeyinin ifadə olunmasına münasib şərait yaratmışdır. Qara rəngin yaratdığı ovqat Tahir Salahov sənətində sərtlik, ciddilik, gerçəklik kimi mətləbləri ifadə edir.

Tahir Salahov sənətində qırmızı rəngin də özünəməxsus yeri və mənası vardır. Doğrudur, Tahir Salahovun əsərlərində digər rənglərlə müqayisədə qırmızı rəng nisbətən az işlədilmişdir. Halbuki tünd-qırmızı rəng Tahir Salahovun sərt realizmi - tənqidi realizmi üçün daha münasib rəng hesab oluna bilərdi. Ancaq Tahir Salahov rəsm əsərlərini tünd-qırmızı rənglə boyamaqdansa, fikirlərini yerli-yerində, öz dozasında, kiçik miqyasda işlətdiyi qırmızı rənglə ifadə etməyə üstünlük verir. Məsələn, onun "Neftçi" adlı rəsm əsərində (1959) bütün cizgiləri mazut rəngində olan Bakı neftçisinin yalnız müştüyünün qırmızı rəngdə olması sovet dövründə Azərbaycan neftinin sümürülüb aparılması mətləbini çox dolğun şəkildə ifadə edir. Sovet dövründə isə neftçinin qırmızı müştüyü neft sənayesində çalışan qırmızı bolşevizmin əsas daşıyıcısı olmuş fəhlə sinfinin zəhmətini nikbin bədii ifadəsi kimi qiymətləndirilmişdir.

Yaxud, məşhur "Bəstəkar Dmitri Şostakoviçin portreti" əsərində (1976) təsvir olunmuş qırmızı divan bu böyük sənətkarın narahat həyatını, sanki qan çanağı üstündə oturması fikrini dəqiq şəkildə mənalandırır. Tamaşaçı dalğın vəziyyətdə qırmızı divanın üstündə oturmuş böyük bəstəkarın portreti ilə onun arzu etdiyini yazmaqda və ya ifa etməkdə çətinlik çəkdiyini başa düşə bilir və yaxud, sərt rənglərlə və cizgilərlə çəkilmiş "Xalq şairi Rəsul Rzanın portreti"ndəki (1971) kitabın yanında çəkilmiş kiçik qırmızı qələm azadlığa, müstəqilliyə meyilli sənətkarın əsərlərində örtülü şəkildə qan qoxulu ciddi mətləblərin, ictimai fikirlərin ifadə olunduğunu nəzərə çarpdırır. Bir sıra rəsm əsərlərində qırmızı rəngdən istifadə etməsə, yaxud edə bilməsə də, görkəmli sənətkar qurduğu kompozisiyaya müxtəlif vəziyyətlərdə təqdim olunmuş, yaxud emalatxana şəraitində bankanın içərisinə salınmış qırmızı fırçanı daxil etməklə rəssam kimi düşüncəsini həmin əsərdə hiss etdirməyə nail olmuşdur.

Belə məqamlarda qırmızı rəngli fırça sanki döyüşçünün atılmamış, ehtiyat üçün saxlanılmış patronu təsiri bağışlayır. Tahir Salahovun rəsmlərində fırçanın ucu boyda olan qırmızı rəngin daşıdığı məna təqdim olunan rəsm əsərinin zahiri görkəmində yox, assosiativ şəkildə, şüuraltı səviyyədə sənətin mahiyyətində öz əksini tapır. Məsələn, "Bəstəkar Qara Qarayevin portreti"ndə (1960) qırmızı rəng yoxdur. Lakin Tahir Salahov ustad sənətkara məxsus royalın üstündə istifadə etdiyi fırçalardan birini təsvir etməklə, həm də ən alt qatda olan qırmızı rəngli fırça vasitəsilə dünya şöhrətli bəstəkarın yaradıcılığının dərin fəlsəfəsini nəzərə çarpdırmağa müvəffəq olmuşdur. Bu rəsm əsərindəki rənglərlə və qırmızı rənglə Qara Qarayevin məşhur "İldırımlı yollarla" baletinin ideyası arasında yaxınlıq vardır.

Bundan başqa, Fikrət Əmirovun portretini çəkərkən (1967) bu görkəmli sənətkarı qırmızı köynəkdə təqdim etmək də səbəbsiz olmayıb, onun yaradıcılığının qayəsini, xüsusən vətəndaş sənətkarın zamanla mücadilədə olması mətləbini mənalandırır. Abşeron motivləri silsiləsindən keçən əsrin altmış-səksəninci illərində çəkilmiş çoxsaylı rəsmlərin mütləq əksəriyyətində cüzi şəkildə istifadə olunan, bəzən hətta nöqtə boyda qeyd edilən qırmızı rəngdən Azərbaycanın sərvətlərinin özünə qismət olmaması, yaxud zor dönəmdə xalqın sərvətlərinə sahib olmasının çətinlikləri örtülü vasitələrlə öz əksini tapmışdır. Tahir Salahovun yaradıcılığında XX əsrə aid boş qalmış Abşeron kəndləri, küçələrində adam görünməyən Bakı ətrafı bağlar, uçub dağılmaq təhlükəsi içində olan qədim Abşeron abidələri kətan üzərinə köçürülərkən tünd, sərt rənglər və cizgilər ön mövqeyə çəkilmişdir. Tahir Salahov bu qəbildən olan əsərlərində yalnız imzası kimi "Т.Салахов" sözlərini qırmızı rənglə yazmaqla kifayətlənir ki, əslində bu da sənətkarın müəllifi olduğu rəsm əsərində böyük ürək yanğısının, vətəndaş narahatlığının ifadə edildiyinə mənalı bir işarədir. Tahir Salahovun natürmort çəkmək üçün də iri qırmızı bibəri seçməsi tünd-qırmızı rəngin onun yaradıcılığındakı ideya-fəlsəfi funksiyasını aydınlaşdırmağa bir daha kömək edir. Bütün bunlara görə xalq rəssamı Tahir Salahovun əsərlərindəki fikirləri, mətləbləri, ideyaları müəyyən etməkdə qırmızı rəng açar rolunu oynayır. Qırmızı rəngin çalarlarını düzgün müəyyən etmədən əsərlərində Tahir Salahovun nə demək istədiyini tam mənası ilə tapmaq, dərk etmək çətindir.

Müşahidələr göstərir ki, Tahir Salahovun yaradıcılığında tünd-qırmızı rənglə yanaşı, açıq-qırmızı rəngin məna çalarında fərqlər vardır. Belə ki, "Ana" portretini çəkərkən, balaca Aydanı kətan üzərində canlandırarkən (1965-1967), "Koroğlu" operası üçün geyim eskizləri hazırlayarkən (1975) görkəmli rəssamın istifadə etdiyi açıq qırmızı rənglər milli düşüncəni, xalqın qüdrətini, ümid və arzularını mənalandırmağa xidmət edir. "Çiçəkləyən nar" rəsmindəki (1978) yaşıl yarpaqların arasında işıq kimi yanan qırmızı çiçəklərdə də nikbin notlar aşkar hiss olunur. Rəssam asfalt rəngində olan bankada yetişdirilən çiçəkləmiş nar ağacının timsalında ən zor şərtlər altında olsa da, mənsub olduğu xalqın yaşamaq əzminin mövcudluğuna, tərəqqi edəcəyinə inamını nəzərə çarpdırmışdır. "Naxçıvan dağları" rəsmində (1971) qırmızı rəng kiçik Qafqaz dağlarının Naxçıvan silsiləsinin özünəməxsus fərqli görkəmi ilə yanaşı, həm də qürur və əzəmət mənalarını ön mövqeyə çıxarır. Başqa məqamlarda isə Tahir Salahovun qırmızı rəngdə yazdığı "Т.Салахов" imzasından həm də keçmiş sovet dövründə senzuranı yayındırmaq üçün orijinal priyom, düşünülmüş üsul kimi də faydalanılmışdır.

Demək olar ki, bütün planeti gəzmiş, dünyanı görmüş, geniş dünyagörüşə malik Tahir Salahovun beynəlxalq mövzularda çəkdiyi çoxsaylı əsərlər ilk növbədə Azərbaycan xalqını Yer kürəsinin müxtəlif guşələrində yaşayan ölkələrin, xalqların, insanların həyatı ilə tanış etməyə hesablanmışdır. Bununla belə o, bilərəkdən xarici mühitə köçürülmüş mövzular vasitəsilə keçmiş sovet cəmiyyətindəki mənfi halları, nöqsanları tənqid etmək, yaxud milli azadlıq, müstəqillik düşüncələrini mənalandırmaq məqsədini də izləmişdir. Məsələn, Çexoslovakiya həyatından çəkilmiş rəsm əsərində Praqa şəhərinin təsvirindən daha çox 1961-ci ildə sovet qoşunlarının Mərkəzi Avropadakı işğalçılıq niyyətlərinə etiraz notları öz əksini tapmışdır. Bu əsərdəki uzaqdan qara kabus kimi görünən vahiməli tankın gəldiyi küçənin döngəsində təsvir olunmuş "Stop" (Dur!) - yol nişanı hərəkəti tənzimələyən işarədən çox, işğalçılıq, təcavüzkarlıq niyyətlərinə son qoyulması fikrini mənalandırır. Yaxud, onun 1961-1967-ci illərdə çəkilmiş əsərlərindəki tünd görkəmi İtaliya, Almaniya və Praqa motivlərinin Bakı şəhəri ilə səsləşməsi sosialist realizmi metodu dövründə vətənlə, doğma ölkə ilə bağlı məsələlərin beynəlxalq mövzular vasitəsilə canlandırıldığını bir daha təsdiqləyir.

Görkəmli Azərbaycan rəssamı, qüdrətli fırça ustası kimi Tahir Salahovu bütün dünya tanıyır. Deməli, Tahir Salahovun sənəti vasitəsilə beynəlxalq aləm həm də Azərbaycanı bir daha tanımaq imkanı qazanır. Mövzusundan, üslubundan, yanaşma tərzindən asılı olmayaraq, Tahir Salahovun əsərlərinin əksəriyyətində bir parça, bir ovuc, bir cizgi Abşeron rəngi, ovqatı mövcuddur. Tahir Salahov milli təsviri sənətimizdə möhtəşəm bir Xəzər epopeyasının, yaxud Abşeron dastanının yaradıcısıdır. Mahir rəssamın nadir fırçasından çıxmış "Təmirçilər" (1960), "İşdən qayıdarkən" (1957), "Səhər eşelonu" (1958), "Abşeron qadınları" (1967), "Xəzərdə" (1967), "Nardaran kəndi" (1974), "Dənizdə buruqlar" (1968), "Xəzərdə qayalar" (1969), "Xəzərdə axşam" (1972), "Eyvanda" (1977), "Mərdəkan qalası" (1978), "Xəzərdə tufan" (1978), "Nardaranda küçə" (1978), "Xəzərdə sahil" (1980) və sair kimi rəsm əsərlərindən hər biri təsviri sənətimizdə hadisə kimi qarşılanmışdır. Əslində Tahir Salahovun tünd rənglərlə ifadə olunan sərt realizmində Abşeron cizgiləri, Xəzər notları gerçəklikləri, aydınlığı, vətən sevgisini, ümidi və inamı, mübarizə əzmini, iradəni dolğun şəkildə ifadə edir.

Bununla belə, Tahir Salahov sənətində müəyyən lirizm, romantika elementləri də müşahidə olunur. Bu isə öz növbəsində Tahir Salahovun rəsm əsərlərində ağ rəngdən istifadə üçün zərurət yaradır. Sovet hakimiyyəti illərində Tahir Salahovun yaradıcılığında ağ rəngin bir neçə əsas çaları diqqət mərkəzində olmuşdur. Görkəmli rəssam ağ rəngdən daha çox Abşeron peyzajı mövzusunda çəkdiyi rəsmlərdə istifadə etmişdir. Ağ rəng Tahir Salahova əyri-üyrü Abşeron küçələrini, əncir bağlarını, üfüqü, çiçəkləri göstərmək üçün lazım olmuşdur. Bunlardan başqa, Tahir Salahov tünd rəngdə təqdim etdiyi hər hansı bir rəsm əsərində, məsələn, "Abşeron qadınları" rəsmində diqqəti hər hansı məqama yönəltmək, qadın obrazlarını fərqləndirmək üçün ağ effektə də müraciət etmişdir. Tahir Salahovun rəsmlərində tünd, qara rənglər içərisində bir az ağ rəngdə təsvir heç vaxt təsadüfi olmayıb, tamaşaçıya əsas mətləbi "diktə" etməyə xidmət göstərmişdir. Bundan başqa, sərt realizm üçün qara və ağ rənglər təzad yaratmaq üçün də lazım olmuşdur. Yəni Tahir Salahovun rəsmlərində ağ rəng əslində qara rəngi daha qabarıq göstərməyə xidmət etmişdir.

Məsələn, "Aydan rəsm çəkir", "Köhnə Ramana", "Xəzərdə qayalar" rəsmlərində ağ rəng təzadı və işığı mənalandırmağa yol açır. Müstəqillik illərində isə Tahir Salahovun yaradıcılığında ağ rəng mənalı bir al rəng çalarında çıxış edir. Tahir Salahovun 2007-ci ildə çəkilmiş "Odlar yurdu" kompozisiyasına daxil olan "Atəşpərəstlərin məbədi", "Xəzər bu gün", "Qız qalası" silsiləsində ağ rəng - al rəng effektinə çevrilmişdir. Bu rəsm əsərlərində ağ rəng tünd-qırmızı rəngin al-qırmızı rəng kimi məna ifadə etməsinə şərait yaratmışdır. Burada ağ rəng vasitəsilə yaradılmış al-qırmızı rəngi Azərbaycan Respublikasının dövlət müstəqilliyi illərindəki böyük inkişafını və təntənəsini bütün reallığı ilə diqqətə çatdırır. "Bağ çiçəkləri" (2005) rəsm əsərindəki ağ çiçəklər isə kompozisiyaya daxil olan digər rənglərdəki çiçəklərlə harmoniyanı nəzərə çarpdırmağa xidmət edir.

Beləliklə, müstəqillik dövründə qüdrətli bir sənətkar kimi Tahir Salahovun özünəməxsus üslubunu əvvəllər onun yaradıcılığında əsas yer tutmuş sərt realizm təşkil edir. Diqqət edilsə, son onilliklərdə Tahir Salahovun yaradıcılığında tünd rənglərlə müqayisədə açıq-qırmızı və ağ rəngdən istifadə ilə yaradılmış rəsm əsərləri çoxluq təşkil etməkdədir. Hətta Tahir Salahovun rəsmlərində yalnız son illərdə meydana çıxmış yaşıl rəng də onun tünd rənglər epoxasından uzaqlaşmaqda olmasının göstəricilərindən biridir. Bütün bunlar Tahir Salahovun yaradıcılığında sərt realizmdən romantizmə dönüşün baş verdiyini nümayiş etdirir. Daha doğrusu, hazırkı mərhələdə xalq rəssamı Tahir Salahov realist-romantik sənətkar kimi yeni dövranı və müasir insanı ilhamla vəsf edir.

Hazırda Azərbaycan Respublikasının xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı Tahir Salahov həyat və yaradıcılığının ən şərəfli bir dövrünü yaşayır. Uzun illər Azərbaycanın və SSRİ-nin Rəssamlar İttifaqına sədrlik etmiş, Rusiya İncəsənət Akademiyasının vitse-prezidenti kimi elmi-pedaqoji fəaliyyətini uğurla davam etdirən qüdrətli fırça ustası Tahir Salahov yeni nəsil rəssamların yetişib formalaşdırılmasına və rəssamlıq sənətinin inkişafına misilsiz töhfələr verir. O, Azərbaycanın və dünyanın bir çox ölkələrində, o cümlədən Rusiyada, Fransada, Almaniyada, İspaniyada, Bolqarıstanda, Avstriyada və başqa ölkələrdə Beynəlxalq Akademiyaların, elmi və yaradıcılıq qurumlarının üzvü seçilmiş, yüksək mükafatlara layiq görülmüşdür. SSRİ və Azərbaycan Ali Sovetlərinin deputatı olmuşdur.

Azərbaycanda xalq rəssamı Tahir Salahovun çoxcəhətli elmi-pedaqoji və rəssamlıq fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi sərəncamı ilə Tahir Salahov ölkəmizin ən yüksək mükafatı olan Heydər Əliyev ordeni ilə təltif olunmuşdur. Tahir Salahov Azərbaycan Respublikasının Dövlət mükafatı laureatıdır, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimidir. Görkəmli rəssam Azərbaycan Milli Elmlər Akademiyasının Üzeyir Hacıbəyli adlı mükafatını almışdır.

Xalq rəssamı Tahir Salahov özünəməxsus sənət düşüncəsi və bənzərsiz rəngləri ilə Azərbaycan təsviri sənətinə Abşeron torpağından, Xəzərdən gəlmişdir. Tahir Salahov görkəmli bir sənətkar kimi sanki böyük sənət aləmində Xəzərdən doğan günəşdir. Ümumiyyətlə, Tahir Salahovun böyük istedadının məhsulu olan rəsm əsərlərindən neft iyi və əncir ətri gəlir. Xəzər dənizi və Abşeron torpağı Tahir Salahov üçün ölkənin sadəcə bir parçası deyildir, geniş mənada günəşli ana vətənin ümumiləşmiş rəmzidir. Günəş həyatı işıqlandırdığı və cana gətirdiyi kimi, Tahir Salahovun əsərləri də cəmiyyətin dərin qatlarına və mühüm mətləblərinə gur işıq salır, həyata, insanlığa, düşüncəyə, dünyaya və ölkə reallıqlarına aydınlıq gətirir, həmişə işığa və inkişafa çağırır.





***İsa HƏBİBBƏYLİ,***
***Milli Məclisin Elm və təhsil komitəsinin sədri, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik***

# Bakı-Tbilisi-Qars dəmir yolu Asiyanı Avropa ilə birləşdirən ən qısa marşrutdur

Noyabrın 28-də Türkmənbaşı şəhərində tranzit və nəqliyyat əməkdaşlığı haqqında "Lapis-Lazuli" Sazişinin iştirakçısı olan ölkələrin (Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə) nəqliyyat nazirlərinin beynəlxalq konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransın işində Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

Azərbaycan nümayəndə heyətinin tərkibinə nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov, "Azərbaycan Xəzər Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev, Azərbaycanın Türkmənistandakı səfiri Həsən Zeynalov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər daxil idi.

Konfrans "Lapis-Lazuli" beynəlxalq nəqliyyat dəhlizinin yaradılması haqqında Sazişin müddəalarının qısa müddətdə həyata keçirilməsini təmin etmək məqsədilə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun sərəncamına müvafiq olaraq keçirilib.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun konfrans iştirakçılarına təbrikini Türkmənistanın Baş nazirinin müavini Məmmədxan Çakıyev oxuyub.

Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov Plenar iclasda çıxış edərək bildirib ki, Azərbaycan "Lapis-Lazuli" layihəsinin reallaşdırılması üçün əlindən gələni edəcək. Baş nazirin birinci müavini deyib ki, nəqliyyat sahəsi Azərbaycan-Türkmənistan tərəfdaşlığının strateji istiqamətlərindən biridir. Bu sahədə tranzit-nəqliyyat və logistika infrastrukturunun yaradılması və inkişaf etdirilməsi üçün geniş imkanlar var.

Yaqub Eyyubov Azərbaycan Prezidentinin bu günlərdə Türkmənistana rəsmi səfər etməsini xatırladaraq deyib ki, həmin səfər müddətində nəqliyyat sahəsində əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirilib. Səfər çərçivəsində imzalanmış 21 sənəddən 9-u tranzit-nəqliyyat əməkdaşlığına aiddir. Bu il Bakı və Türkmənbaşı şəhərlərində açılmış limanları "Lapis-Lazuli" nəqliyyat marşrutunun əsas yükaşırma məntəqələri adlandıran Y.Eyyubov bildirib ki, Bakı limanının yükaşırma qabiliyyəti birinci mərhələdə ildə 15 milyon tona, növbəti mərhələdə isə ildə 25 milyon tona bərabər olacaq. Tranzit-nəqliyyat əməkdaşlığını ölkələr arasında ticari-iqtisadi əməkdaşlığın mühüm amillərindən biri adlandıran Azərbaycan Baş nazirinin birinci müavini xatırladıb ki, Azərbaycan, Türkiyə və Gürcüstanın birgə səyləri ilə bir il bundan əvvəl istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu Asiyanı Avropa ilə birləşdirən ən qısa marşrutdur.




Plenar iclasda Özbəkistan Respublikası Baş nazirinin birinci müavini Açılbay Ramatov, Türkiyə Respublikası nəqliyyat və infrastruktur naziri Cahit Turxan, Əfqanıstan İslam Respublikasının nəqliyyat naziri Təhmasi Möhd Hamid, Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Akaki Saqiraşvili, MDB İcraiyyə Komitəsi sədrinin birinci müavini Viktor Quminski çıxış ediblər.

MDB nümayəndəsi "Lapis-Lazuli" layihəsinin reallaşdırılmasını dəstəklədiyini bildirərək deyib ki, bu layihə həyata keçirilən qitələrarası layihələrin şərq budağı olacaq. V.Quminski nəqliyyat dəhlizlərinin şaxələndirilməsinin əhəmiyyətindən söhbət açaraq Azərbaycan Prezidenti İlham Əliyevin bu fikrini sitat gətirib ki, nəqliyyat dəhlizlərinin fəaliyyəti yeni tranzit-nəqliyyat imkanları yaradır, ikitərəfli və çoxtərəfli ticari-iqtisadi əlaqələri genişləndirir.

Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə forumda "Tranzit-nəqliyyat dəhlizinin fəallaşmasında dövlətlərarası əməkdaşlığın rolu, tranzit-nəqliyyat dəhlizlərinin inkişafında logistik şirkətlərin əhəmiyyəti" seksiyasında çıxış edib. O vurğulayıb ki, nəqliyyat və tranzit infrastrukturunun inkişafı Azərbaycanın hərtərəfli inkişafı, qarşıdakı illərdə onun sabit və ardıcıl tərəqqisinin təmin edilməsi üzrə dövlət siyasətinin əsas istiqamətlərindəndir. 2016-cı ilin sonunda Azərbaycanda iqtisadiyyatın bütün əsas sektorlarını əhatə edən 12 Strateji Yol Xəritəsi qəbul edilib.

Strateji Yol xəritələrində başqa sektorlarla yanaşı, logistika və ticarət sektorlarına da diqqət yetirilib, Azərbaycanın regional logistika və ticarət mərkəzi kimi aparıcı rolunun artması qeyd edilib.

"Şimal-Cənub", "Bakı-Tbilisi-Qars", "Cənub-Qərb" və "Lapis-Lazuli" beynəlxalq nəqliyyat dəhlizlərinin qovuşduğu məkanda yerləşən Azərbaycan Avropa ilə Asiyanı birləşdirən logistik zəncirin əsas halqasına çevrilmək üçün hər cür şəraitə malikdir.

Bu vəzifənin reallaşdırılması, infrastruktur layihələrinə investisiyalar Azərbaycanın ümumi daxili məhsulunu birbaşa 240 milyon manat, dolayısı ilə daha 140 milyon manat və bütövlükdə 380 milyon manat artırmağa, 5500 yeni iş yeri açılmasına imkan verəcək.

Gözlənildiyinə görə, "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat marşrutlarının sayəsində ölkənin ümumi daxili məhsulu hər il 7 faiz artacaq. Konteyner, quru, maye və qablaşdırılmış yüklərin bütün kateqoriyalarının daşınmasında Azərbaycanın iştirakı təmin olunacaq.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Taleh Ziyadov "Multimodal daşımalar və onların dövriyyəsi" seksiyasında çıxış edib. O vurğulayıb ki, ölkəmizin "Qərb-Şərq" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişdiyi məkanda yerləşməsi və ölkədə mövcud olan siyasi sabitlik sayəsində Bakı limanı əcnəbi sərmayədarlar üçün cəlbedici olub. T.Ziyadov bildirib ki, Bakı limanında yükdaşımaların dinamikası ildən-ilə artır. Cari ilin 10 ayı ərzində konteynerlərin aşırılması göstəricisi 50,6 faiz artaraq 18.728 TEU olub, limanın xidmətlərindən istifadə edən sərnişinlərin sayı isə 48,5 faiz artaraq 39.215-ə bərabər olub.

Bu gün Bakı limanı yükdaşımaların bütün növlərini həyata keçirməyə imkan verir. T.Ziyadovun sözlərinə görə, hazırda limanın tamamilə avtomatlaşdırılmış şəkildə idarə edilməsi üçün son sınaq yoxlamaları aparılır. Bütün bunlar beynəlxalq nəqliyyat marşrutlarında, o cümlədən "Lapis-Lazuli" marşrutunda yükdaşımaları və boşaldılan yüklərin yenidən yüklənməsi işlərini səmərəli və sürətlə həyata keçirməyə şərait yaradır.

Tədbir öz işini plenar iclaslarda, habelə "Tranzit-nəqliyyat dəhlizlərinin fəaliyyətində dövlətlərarası əməkdaşlığın rolu", "Tranzit-nəqliyyat dəhlizlərinin inkişafında logistik şirkətlərin əhəmiyyəti", "İnfrastruktur və nəqliyyat imkanları", "Multimodal daşımalar və onların dövriyyəsi" mövzularına həsr edilmiş seksiyalarda davam etdirib. Konfrans çərçivəsində sərgi təşkil olunub.

Xatırladaq ki, "Lapis-Lazuli" marşrutuna dair saziş 2017-ci il noyabrın 15-də Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında Əfqanıstana dair VII regional iqtisadi əməkdaşlıq konfransında (RECCA - Regional Economic Cooperation Conference on Afghanistan) imzalanıb.

Bu sənədin reallaşdırılması regionun iqtisadi inteqrasiya səviyyəsini yüksəltməyə, ticarətin həcmini əhəmiyyətli dərəcədə artırmağa xidmət edir. "Lapis-Lazuli" beynəlxalq nəqliyyat dəhlizi həmin marşrut üzrə yükdaşımaların həcmini artırmaq üçün yeni imkanlar yaradır.

Forumun işində sazişin iştirakçısı olan ölkələrin nüfuzlu nümayəndə heyətləri, dünyanın bir sıra ölkələrindən gəlmiş mütəxəssislər, o cümlədən nəqliyyat şirkətlərinin, sahəvi nazirlik və idarələrin, beynəlxalq təşkilatların və KİV-in nümayəndələri iştirak ediblər.

Beynəlxalq konfransın iştirakçıları yekun bəyannamə qəbul ediblər. Sənəddə davamlı inkişafın mühüm elementlərindən biri kimi nəqliyyat və tranzit dəhlizlərinin yaradılması və inkişafı işində beynəlxalq əməkdaşlığın zəruriliyi vurğulanır. Yekun bəyannamədə deyilir: "Sabit regional inkişafın təmin edilməsi üçün Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında tranzit və nəqliyyat əməkdaşlığı haqqında "Lapis-Lazuli" Sazişinin əhəmiyyətini xüsusi vurğulayırıq. Sazişin müddəalarının praktiki surətdə həyata keçirilməsi məqsədilə iştirakçı ölkələrin müvafiq idarələrinin nümayəndələri arasında müntəzəm görüşlər keçirilməsinin zəruriliyini qeyd edirik. Digər ölkələrin sazişə qoşulmağa marağını alqışlayırıq.

Nəqliyyatın bütün növləri arasında əlaqələrin möhkəmlənməsi və tranzit-nəqliyyat dəhlizlərinin inkişafı üçün BMT sisteminə daxil olan təşkilatlar və digər beynəlxalq təşkilatlar, müvafiq beynəlxalq maliyyə təsisatları, çoxtərəfli və ikitərəfli donorlar və özəl sektor tərəfindən ölkələrə maliyyə və texniki yardımın səfərbər edilməsi işində səyləri əlaqələndirməyin və əməkdaşlığın zəruriliyini vurğulayırıq".

# Güclü iqtisadiyyata malik olmaq üçün gömrük infrastrukturunun inkişafı da zəruridir

İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İqtisadiyyat və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin (COMCEC) 34-cü sessiyası keçirilir. "Ticarətin asanlaşdırılması: gömrüklərdə risklərin idarə olunması" mövzusunda keçirilən sessiyada Azərbaycanı Dövlət Gömrük Komitəsinin sədri gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin başçılıq etdiyi nümayəndə heyəti təmsil edir. Azərbaycan nümayəndə heyətinin tərkibinə iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov və digər rəsmi şəxslər daxildirlər.



AZƏRTAC xəbər verir ki, sessiya çərçivəsində noyabrın 28-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə nazirlər toplantısı keçirilib. Rəsmi açılış mərasimində Rəcəb Tayyib Ərdoğan, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yousef bin Ahmed Al-Othaimeen, İslam İnkişaf Bankı Qrupunun prezidenti Bandar Hajjar, Türkiyənin Palatalar və Borsalar Birliyinin (TOBB) sədri və İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası başçısının müavini Rifat Hisarcıklıoğlu, eləcə də üzv ölkələrin region təmsilçiləri çıxış ediblər.

İslam ölkələrinə qarşı müşahidə olunan ədalətsizliklərdən bəhs edən Türkiyə Prezidenti deyib ki, münaqişə bölgələrində baş verən humanitar fəlakətlər müsəlman xalqlarına qarşı ən böyük haqsızlıqlardır. Müsəlman ölkələrindəki bir sıra problemlər xarici ölkələrdən qaynaqlanır. Dünyadakı ikili standartların sürətlə davam etməsi yolverilməzdir. O, İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin zəngin təbii qaynaqlara malik olduqlarını bildirib, İƏT çərçivəsində əməkdaşlığın genişləndirilməsi imkanlarından bəhs edib.

Çıxışında İƏT-in potensial imkanlarına geniş yer ayıran İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yousef bin Ahmed Al-Othaimeen diqqətə çatdırıb ki, üzv ölkələr arasında iqtisadi və ticarət əlaqələri genişlənməkdədir. Təşkilatın nəqliyyat, ticarət, enerji, turizm və digər sahələrə dair layihələri barədə ümumi məlumat verən baş katib bildirib ki, bütün bu layihələr İƏT-ə üzv olan ölkələr tərəfindən maraqla qarşılanır. Təşkilatın sürətlə formalaşan ayrı-ayrı strukturları barədə danışan baş katib Bakıda yerləşən İƏT Əmək Mərkəzinin fəaliyyətinə görə Azərbaycan hökumətinə təşəkkürünü ifadə edib.

İslam İnkişaf Bankı (İİB) Qrupunun prezidenti Bandar Hajjar isə İƏT-ə üzv olan ölkələrə sərmayə qoyuluşunun vəziyyətindən danışıb.

Sonra üzv ölkələrin region təmsilçilərinin çıxışları dinlənilib.

Nazirlər toplantısında çıxış edən Dövlət Gömrük Komitəsinin sədri S.Mehdiyev bildirib ki, müasir qloballaşan dünyada uğurlu nailiyyətlər əldə olunması və iqtisadiyyatın inkişaf etdirilməsi mühüm amillərdəndir. Hazırkı dövrdə güclü iqtisadiyyata malik olmaq üçün gömrük infrastrukturunun inkişaf etdirilməsi də zəruridir: "Ticarətin asanlaşdırılması ölkələrin rifahına, iqtisadiyyatın inkişafına, ixrac potensialının artmasına və beynəlxalq rəqabət qabiliyyətinin güclənməsinə gətirib çıxarır ki, bu da öz növbəsində ölkədə güclü və etibarlı gömrük-biznes əməkdaşlığının olması üçün mühüm əhəmiyyət kəsb edir".

O deyib ki, Azərbaycanın tarixən müxtəlif mədəniyyət və sivilizasiyaların kəsişdiyi ərazidə yerləşməsi ölkənin Şimal və Cənub, Qərb və Şərq arasında körpü rolunu oynamasına əlverişli şərait yaradıb. Tarixi Böyük İpək yolunun Azərbaycan ərazisindən keçməsi dünya ticarəti ilə intensiv şəkildə əlaqə yaradılmasında müstəsna rol oynayıb və ölkə ərazisində müasir tələblərə cavab verən gömrük işinin formalaşması istiqamətində mühüm addımlar atılıb.

Komitə sədri əlavə edib ki, gömrük orqanlarının potensialının gücləndirilməsi, qlobal ticarət-təchizat zəncirinin təhlükəsizliyinin təmin edilməsi və iqtisadi nailiyyətlərin əldə edilməsi gömrük işi sahəsində islahatların aparılmasını ehtiva edir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin bu gün uğurla davam etdirdiyi daxili və xarici siyasət nəticəsində ölkədə bütün sahələrdə olduğu kimi, gömrük işi sahəsində də dinamik inkişaf təmin edilir, gömrük sistemi təkmilləşdirilir və beynəlxalq standartlara cavab verən bir sıra müasir layihələr və yeni islahatlar həyata keçirilir.

S.Mehdiyev diqqətə çatdırıb ki, Azərbaycan Gömrük Xidmətinin ümumi fəaliyyət strategiyası regionda qanuni ticarətin inkişafına əlverişli şəraitin yaradılması, beynəlxalq ticarət-təchizat zəncirinin təhlükəsizliyinin təmin edilməsi və xarici iqtisadi fəaliyyətin stimullaşdırılması yolu ilə ölkədə ticarət-investisiya mühitinin daha cəlbedici olmasına yönəlib.

"Maksimum dərəcədə çalışırıq ki, sahibkarlar gömrük orqanlarına birbaşa elektron xidmətlərdən istifadə etməklə müraciət etsinlər. Hər bir xidmətin elektron formaya keçirilməsi ilə bağlı konkret mexanizm hazırlanır. Gömrük rəsmiləşdirilməsində şəffaflığın təmin edilməsi, bəyanetmə prosesinin asanlaşdırılması və gömrük əməkdaşı ilə vətəndaşların təmasının minimuma endirilməsi məqsədilə malların və nəqliyyat vasitələrinin kağızsız texnologiya əsasında internet üzərindən bəyan edilməsinə imkan verən Elektron Gömrük Bəyannaməsi sistemi sahibkarların istifadəsinə verilib. Hazırda isə Dövlət Gömrük Komitəsi və açıq hökumət cəmiyyətləri arasında sıx və əlaqəli işlər başlayıb. Bütün məlumatların, o cümlədən xarici ticarətin gömrük statistikasının Açıq Hökumət Məlumatları Portalına inteqrasiya edilməsi üzərində işlər davam edir", - deyə komitə sədri əlavə edib.

S.Mehdiyev vurğulayıb ki, Azərbaycan Gömrük Xidməti mükəmməl hüquqi bazaya, inkişaf etmiş infrastruktura malik olmaqla, ölkənin fiskal siyasətini uğurla həyata keçirir, onun quru, hava və dəniz yollarında iqtisadi mənafeyini və təhlükəsizliyini qoruyur. Dövlət Gömrük Komitəsi, eyni zamanda, hüquq mühafizə orqanı olaraq qaçaqmalçılıq və digər hüquqpozma hallarına qarşı mübarizənin gücləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər görür. Qaçaqmalçılığa qarşı mübarizə sahəsində köklü dəyişikliklər aparılması nəticəsində yüksək göstəricilər əldə olunub.

Nazirlərin toplantısında risklərin idarə olunması sahəsində əldə edilən təcrübələrin bölüşdürülməsi, bu istiqamətdə əməkdaşlığın inkişaf etdirilməsinə dair məsələlər müzakirə olunub. Eyni zamanda, görüşdə üzv ölkələr arasında iqtisadiyyat və ticarət sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin gələcək perspektivləri, cari ilin mayında COMCEC-in Ankarada keçirilən iclasında qəbul edilən gündəlik layihəsindəki məsələlər barədə fikir mübadiləsi aparılıb.

Sessiya çərçivəsində "Regional inteqrasiya üçün ticarətin asanlaşdırılması potensialından istifadə", "Gömrük sisteminin modernləşdirilməsi sahəsindəki çətinliklər və mümkün həllər", "Ticarətin asanlaşdırılmasında özəl sektorun rolu" və digər mövzularda panel iclaslar keçirilir. Sessiya noyabrın 29-da başa çatacaq.

# Daxili İşlər Nazirliyinin nümayəndə heyəti Serbiyada səfərdə olub






Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyəti Serbiya Respublikası Baş nazirinin müavini-daxili işlər naziri Neboyşa Stefanoviçin dəvəti ilə bu ölkədə ikigünlük səfərdə olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 27-də daxili işlər naziri R.Usubov və onu müşayiət edən şəxslər Belqradda ulu öndər Heydər Əliyevin şərəfinə ucaldılmış abidənin önünə əklil qoyaraq dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Həmin gün Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç daxili işlər naziri general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Serbiya Prezidenti cari ilin mayında respublikamıza ilk rəsmi səfərini, ölkəmizdə ən yüksək səviyyədə aparılan danışıqları və imzalanmış sənədləri məmnunluqla xatırladıb. Dövlət başçısı ölkəsinin Azərbaycan ilə əlaqələrin genişləndirilməsinə hər zaman böyük önəm verdiyini, bütün sahələrdə əməkdaşlığı inkişaf etdirmək əzmində olduqlarını diqqətə çatdırıb. Beynəlxalq arenada hər iki dövlətin bir-birinin müstəqilliyini, ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini, olduqca mürəkkəb regionda yerləşməsinə baxmayaraq, Prezident İlham Əliyevin liderliyi ilə respublikamızın son illər böyük uğurlara imza atdığını deyən Serbiya Prezidenti Azərbaycanın öz milli maraqlarına xidmət edən müstəqil siyasət yürütdüyünü, dünyada nüfuzunun artdığını vurğulayıb, səmimi salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırmağı xahiş edib.

Sonra Serbiya Respublikası Baş nazirinin müavini - daxili işlər naziri Neboyşa Stefanoviç general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Dəvəti qəbul etdiyinə görə təşəkkürünü bildirən serbiyalı nazir dövlətlərimizin başçılarının siyasi iradəsinə və dostluq münasibətlərinə uyğun olaraq, son illər ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik inkişaf etdiyini, qarşılıqlı əlaqələrin milli maraqlara cavab verdiyini vurğulayıb.

Neboyşa Stefanoviç bənzər münaqişələrdən əziyyət çəkən hər iki dövlətin bir sıra problemlərə dair beynəlxalq müstəvidə eyni mövqedə olduğunu, yaxın dost saydıqları Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlıqda maraqlı olduqlarını, bu səfərin də əlaqələrin dərinləşməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Dəvətə və yüksək qonaqpərvərliyə görə təşəkkür edən nazir Ramil Usubov ölkəmizin tarixən Balkan dövlətləri, o cümlədən Serbiya ilə dostluq əlaqələrinin mövcudluğunu məmnunluqla diqqətə çatdırıb. Ulu öndər Heydər Əliyevin ikitərəfli münasibətlərin qurulmasına və inkişafına xüsusi önəm verdiyini, qarşılıqlı səfərlər, aparılan danışıqlar və imzalanmış sənədlər sayəsində əməkdaşlığın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayan general-polkovnik Ramil Usubov 2010-cu il mayın 13-də Bakıda imzalanmış "Azərbaycan Respublikasının Hökuməti ilə Serbiya Respublikasının Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"in bu baxımdan iki ölkənin Daxili İşlər nazirlikləri arasında əlaqələrin qurulmasında əhəmiyyətli rolunu xatırladıb.

Nazir ölkəmizdə cinayətkarlıqla mübarizə sahəsində həyata keçirilən tədbirlər, müstəqilliyin ilk illərində üzləşdiyimiz problemlər, ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra həyata keçirilən islahatlar, ictimai-siyasi sabitliyin, əmin-amanlığın bərpası istiqamətində hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarının gördükləri işlər barədə məlumat verib. Bu siyasətin bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyi bildirilib.

Mövcud problemlərə toxunan daxili işlər naziri transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan beynəlxalq terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, qanunsuz miqrasiya və kibercinayətkarlıq ilə mübarizənin diqqət mərkəzində dayandığını, onlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının vacibliyini vurğulayıb.

Sonda daxili işlər nazirləri "Serbiya Respublikasının Kriminalistika və Polis Araşdırmaları Akademiyası ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası arasında elm və təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalayıblar.

Daha sonra nazirlər mətbuat üçün qısa bəyanatlarla çıxış ediblər.

Həmin gün Serbiya Respublikası Milli Assambleyasının sədri Maya Qoykoviç general-polkovnik R.Usubov və nümayəndə heyətinin üzvləri ilə görüşüb.

Səfərin sonunda daxili işlər naziri R.Usubov və onu müşayiət edən şəxslər Xüsusi Antiterror Qrupunun yerləşdiyi əraziyə gələrək qurumun fəaliyyəti, əməkdaşların təlim-məşq prosesi və texniki təminatı ilə yaxından tanış olublar.

Qəbul və görüşlərdə Azərbaycan Respublikasının Serbiyadakı səfiri Eldar Həsənov da iştirak edib.

# Azərbaycan nümayəndə heyəti MOKA-nın Baş Assambleyasında iştirak edir

Yaponiyanın paytaxtı Tokioda Milli Olimpiya Komitələri Assosiasiyasının (MOKA) Baş Assambleyası keçirilir.

AZƏRTAC xəbər verir ki, tədbirdə ölkəmizi Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadənin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edir. Heyətdə MOK-un baş katibinin müavini Azər Əliyev, beynəlxalq əlaqələr idarəsinin rəisi Anar Bağırov və marketinq idarəsinin rəisi Mehman Kərimov yer alıblar.

Assambleya çərçivəsində MOKA-nın audit və maliyyə, marketinq, atletlər, beynəlxalq əlaqələr və tibbi komissiyalarının iclasları keçirilib və məruzələr dinlənib. Gənclər komissiyasının və MOKA-nın İcraiyyə Şurasının iclasları da gündəliyə daxil edilib.



Noyabrın 28-dən MOKA-nın Baş Assambleyası işə başlayıb. Assambleyada 206 Milli Olimpiya Komitəsindən 1400-dək nümayəndə iştirak edib. Tədbir MOKA-nın prezidenti Şeyx Əhməd Al-Fasad Al-Sabahın açılış nitqi ilə başlayıb.

Assambleya iştirakçılarının "Tokio 2020" Yay Olimpiya Oyunlarının keçiriləcəyi yarış obyektləri ilə tanışlığı da nəzərdə tutulub.

Sonda Beynəlxalq Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin iclası keçiriləcək.

# QDİƏT-in Parlament Məclisinə sədrlik Azərbaycana keçib

**Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament (QDİƏT) Məclisinə sədrlik Azərbaycana keçib. AZƏRTAC xəbər verir ki, bununla bağlı qərar məclisin İrəvanda keçirilmiş 52-ci sessiyasında qəbul edilib. Beləliklə, növbəti - 53-cü sessiya 2019-cu ilin iyununda Bakıda təşkil olunacaq.**



QDİƏT-in Parlament Məclisinin 52-ci sessiyasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədr müavini Eldar Quliyev, Milli Məclisin deputatı, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov iştirak ediblər. Tədbirdə təşkilatın regionda iqtisadi əlaqələrin möhkəmlənməsində rolu, həmkarlar ittifaqının cəmiyyətlərə təsiri, bölgənin turizm potensialı və perspektivi mövzularında müzakirələr aparılıb.

Məlum olduğu kimi, sessiyanın dünənki iclasında E.Quliyev "Regional iqtisadi əməkdaşlığın inkişafında parlamentlərin rolu", Ə.Amaşov isə "Azərbaycan Respublikasında kiçik biznesin inkişafında dövlət dəstəyi" mövzusunda çıxış ediblər.

Qeyd edək ki, QDİƏT-in Parlament Məclisinə sədrlik əlifba sırası əsasında, rotasiya qaydasına uyğun olaraq 6 ay müddətində həyata keçirilir. Qaydaya görə, Məclisə sədrliyi ölkənin parlamentinin rəhbəri həyata keçirəcək. Bu baxımdan növbəti 6 ay müddətində QDİƏT-in Parlament Məclisinin sədri Azərbaycan Milli Məclisinin Sədri Oqtay Əsədov olacaq.

# "Dədə Qorqud irsi" UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib

Noyabrın 28-də Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında qəbul edilmiş qərarla Azərbaycanın Türkiyə və Qazaxıstan ilə birgə təqdim etdiyi "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" çoxmillətli mədəniyyət nümunəsi kimi UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Mədəniyyət və Xarici İşlər nazirliklərinin birgə bəyanatında bildirilir.

Bəyanatda deyilir: "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli mədəniyyət nümunəsi Azərbaycanda, Türkiyədə və Qazaxıstanda birlik, bərabərlik və müxtəlifliyi, həmçinin xalqlarımızın ailə dəyərlərini, qadının cəmiyyətdə rolunu, qonaqpərvərlik və ədalət prinsiplərini təbliğ etdiyini ifadə edir.

Ermənistan nümayəndəsinin "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli mədəniyyət nümunəsinin Azərbaycana dair hissəsinə qarşı əsassız çıxış etməsi heç bir nəticə vermədi. Ermənistan tərəfinin qeyri-konstruktiv və yersiz mövqeyinin yolverilməz olduğunu bir daha diqqətə çatdıran Azərbaycan nümayəndə heyəti ölkəmizin bu çoxmillətli nominasiyanın tərəfi olmaqla regional əməkdaşlığa və ortaq mirasa sahib olan ölkələrlə mədəniyyətin bölüşülməsi faktoruna önəm verdiyini və bununla da UNESCO-nun xoşməramlı prinsiplərinə sadiqliyini nümayiş etdirdiyini bildirib.

UNESCO ilə əməkdaşlığın genişləndirilməsində və mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində əvəzsiz xidmətləri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın dəstəyi ilə "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli mədəniyyət nümunəsi ilə yanaşı, hazırda kamança hazırlanması və ifaçılıq sənəti, dolma hazırlama və paylaşma ənənəsi, Azərbaycan muğam ifaçılığı, lavaş bişirmə və paylaşma ənənəsi, Lahıc misgərlik sənəti, aşıq sənəti, Novruz bayramı, xalça sənəti, tar ifaçılığı, kəlağayı sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısında, həmçinin Qarabağın Çövkən ənənəvi atüstü oyunu və "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin isə UNESCO-nun təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında yer alır".

# Hərbi büdcə yenə də artırılır

## İlham Əliyevin ordumuzun döyüş imkanlarının yüksəldilməsi ilə bağlı prioritetləri sürətlə reallaşır

*Əvvəli 1-ci səh.*

Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində yeni hərbi texnikalar alınmaqla ordunun maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirildi, döyüş qabiliyyəti yüksəldi, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı. Hərbi xərclərin artırılması ilə sürətlənən ordu quruculuğu prosesini Azərbaycanın bütün qoşun birləşmələrinin timsalında görmək mümkündür.

Xatırladaq ki, 2007-ci ilin dövlət büdcəsindən ordu quruculuğuna 1 milyard, 2008-ci ildə isə 1 milyard 300 milyon dollar vəsait ayrılmışdı. Həmin il büdcədə aparılmış dürüstləşmədən sonra bu məbləğ daha bir neçə yüz milyon artırılmışdı. Bu, dövlət başçısının ordunun möhkəmləndirilməsinə olan diqqətinin və ölkəmizin təhlükəsizliyi, xarici təhdidlərin aradan qaldırılması kimi məsələlərdə nümayiş etdirdiyi həssaslığın təzahürüdür. Azərbaycanın hərbi büdcəsinin 1 milyard dolları ötməsi həm də Prezident İlham Əliyevin verdiyi vədi yerinə yetirməsinin təsdiqidir.

### Cari illə müqayisədə 132,4 milyon manat artım

Artıq gələn ilin dövlət büdcəsinin layihəsi Milli Məclisdə iki oxunuşdan keçib. Layihə ilə tanışlıq ilk növbədə onu göstərir ki, Azərbaycanın iqtisadi inkişafı davamlıdır və son illərdə həyata keçirilən yeni islahatlar öz bəhrəsini verməkdədir. 2018-ci ildə qazanılan bütün iqtisadi nailiyyətlər 2019-cu ilin büdcəsində əsas meyar kimi qəbul edilib. Bunun nəticəsidir ki, gələn il üçün respublikamızda dövlət büdcəsinin gəlirləri 23 milyard 168 milyon manat, xərcləri isə 25 milyard 190 milyon manat proqnozlaşdırılıb. 2018-ci il üçün bu rəqəmlər müvafiq olaraq 22 milyard 149 milyon və 23 milyard 100 milyon manat təsdiq olunub. Göründüyü kimi, cari illə müqayisədə 2019-cu ildə Azərbaycanın dövlət büdcəsinin gəlirləri 768,5 milyon manat, xərcləri isə 1 milyard 680,1 milyon manat çox nəzərdə tutulub.

Müdafiə və təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq mühafizə orqanlarının və prokurorluğun saxlanılması xərcləri üçün 2019-cu il dövlət büdcəsi xərclərinin 18,5 faizi həcmində və ya 4 milyard 589,6 milyon manat vəsait nəzərdə tutulub. Bu vəsaitin 3 milyard 37,6 milyon manatı və ya 66,2 faizi (2018-ci ilə nisbətən 132,4 milyon manat və ya 4,6 faiz çox) müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsi xərclərinə yönəldilib.

Növbəti ildə müdafiə və təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq mühafizə orqanlarının və prokurorluğun saxlanılması xərclərində kirayəyə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara (ehtiyatda və istefada olan hərbi qulluqçular nəzərə alınmaqla) ödənilən pul kompensasiyası, yeni sərhəd-keçid məntəqələrinin tikintisi, avadanlıq və qurğuların, nəqliyyat vasitələrinin alınması üçün müvafiq məbləğdə əlavə vəsait nəzərdə tutulub.

### Qarşıda duran vəzifələr gələn il də davam etdiriləcək

Göründüyü kimi, 2018-ci illə müqayisədə gələn il hərbi məqsədlər üçün ayrılacaq xərclər 132,4 milyon manat çox olacaq. Bu isə orduda, bütövükdə Silahlı Qüvvələrdə həyata keçirilən islahatların davamlı olması üçün maliyyə çətinliklərinin yaranmaması deməkdir.

Xatırladaq ki, 2014-cü ilin avqust hadisələri, 2016-cı ilin Aprel döyüşləri və nəhayət, bu il Naxçıvanda Günnüt zəfəri Azərbaycan Silahlı Qüvvələrinin gücünün praktik təsdiqidir. Son iki döyüşdə ordumuz əlverişsiz mövqelərdən çıxaraq strateji mövqelərə sahib oldu. Bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək və istədiyimiz tədbiri görə bilək.

Hazırda dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları silahlar Azərbaycanda da var. Bunun nəticəsidir ki, hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Həmçinin beynəlxalq reytinq agentliklərinin hesabatlarında Silahlı Qüvvələrimiz dünyanın güclü, müasir standartlara uyğun yenidən qurulan və təchiz edilən orduları ilə bir sırada yer alır.

Fərəhlisi odur ki, Azərbaycanın hərbi sənaye kompleksi də formalaşıb. Bu gün Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Ölkəmizdə son illərdə formalaşan və dinamik templə inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir.

Ordumuzda aparılan islahatlardan biri də hərbi şəhərciklərin, kazarmaların yenidən qurulmasıdır. Artıq bütün hərbi bazalar və şəhərciklərin 80 faizindən çoxu yenidən inşa edilib. Bu isə onu göstərir ki, Azərbaycanda ordu quruculuğu sahəsində aparılan islahatlar kompleks şəkildə həyata keçirilir.

Orduda həyata keçirilən modernləşmə islahatları, döyüş imkanlarının artırılması tədbirləri gələn il də davam etdiriləcək. Bu vəzifələrin il ərzində uğurla reallaşacağına şübhə ola bilməz. Ən azından ona görə ki, gələn il hərbi büdcəmiz builkindən çox olacaq

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilib



"Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilib. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Mədəniyyət və Xarici İşlər nazirliklərinin birgə bəyanatında bildirilir.

Bəyanatda deyilir: "2018-ci ilin 26 noyabr - 1 dekabr tarixlərdə Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilən qərarla "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilib.

Sözügedən nominasiya sənədi Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəliyinin birgə əməkdaşlığı ilə təqdim edilib. Namizədlik sənədinin məhz Naxçıvan adı ilə təqdim edilməsində əsas məqsəd ölkəmizin qədim və tarixi regionu olan Naxçıvanda yaşayan əhalinin ənənəvi mədəniyyətinə və xalq yaradıcılığına dünya miqyasında işıq salmaq və tanıtmaq, eyni zamanda, bu ənənələri UNESCO səviyyəsində qorumaqdır.

Ermənistanın Azərbaycanın digər mədəni irs namizədləri ilə bağlı olduğu kimi "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" nominasiyasına qarşı təxribat xarakterli cəhdlərinin qarşısı alınıb, Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanları tərəfindən sessiyadan əvvəl müvafiq iş aparılıb və ölkəmizin nümayəndə heyəti tərəfindən sessiya zamanı Ermənistan tərəfinə layiqli cavab verilib.

UNESCO ilə əməkdaşlığın inkişafında və mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində müstəsna rolu olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın dəstəyi ilə "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" ilə yanaşı, hazırda kamança hazırlanması və ifaçılıq sənəti, dolma hazırlama və paylaşma ənənəsi, Azərbaycan muğam ifaçılığı, lavaş bişirmə və paylaşma ənənəsi, Lahıc misgərlik sənəti, aşıq sənəti, Novruz bayramı, xalça sənəti, tar ifaçılığı, kəlağayı sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısında, həmçinin Qarabağın Çövkən ənənəvi atüstü oyunu isə UNESCO-nun təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında yer alır".

# TÜRKPA Katibliyinin diplomatik heyəti Cocuq Mərcanlıda



TÜRKPA Katibliyinin diplomatik heyəti noyabrın 27-də Cocuq Mərcanlıya səfər edib.

AZƏRTAC xəbər verir ki, TÜRKPA-nın baş katibi Altınbek Mamayusupov, baş katibin müavinləri Fuad Ələkbərov, Nauriz Aydarov və Ali Yıldız, TÜRKPA komissiyalarının katibləri Emin Həsənov və Kanatbek Kurmanbekovdan ibarət heyətlə görüşən Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov qonaqlara Cocuq Mərcanlının tarixi, eləcə də kəndin düşməndən geri alınmasından sonra görülən işlər barədə məlumat verib.

Bildirilib ki, 2016-cı ilin Aprel qələbəsindən sonra Cocuq Mərcanlıda yaşamaq mümkün olub. Kəndin bərpasının ilk mərhələsinə 2017-ci ilin yanvarında Prezident İlham Əliyevin sərəncamı ilə başlanılıb. 50 fərdi ev, məktəb, məscid, elektrik yarımstansiyası, hidrometereoloji stansiya, avtomobil yolu və digər müvafiq infrastruktur tikilib, kənd qaz, elektrik enerjisi və içməli su ilə təmin olunub. Ötən il iyunun 15-də Prezident İlham Əliyevin imzaladığı digər sərəncamla Cocuq Mərcanlı kəndində bərpa işləri davam etdirilib. İkinci mərhələdə daha 100 ev tikilib, kəndin infrastrukturu genişləndirilib.

Altınbek Mamayusupov Cocuq Mərcanlıda Azərbaycan hökuməti tərəfindən görülən işləri yüksək qiymətləndirib. O, TÜRKPA-ya üzv ölkələrin Azərbaycan Respublikasının ərazi bütövlüyü ilə bağlı yekdil mövqeyini xüsusi vurğulayıb. Bildirib ki, bu mövqe assambleya tərəfindən qəbul edilmiş bəyannamələrdə də əks olunub.

Səfər çərçivəsində nümayəndə heyətinin üzvləri kənd əhalisi ilə görüşüb, orta məktəbdə olub, məşhur Şuşa məscidinin bənzəri olan Cocuq Mərcanlı məscidini ziyarət ediblər.

# Hesablama Palatasında kollegiya iclası keçirilib

Azərbaycan Respublikası Hesablama Palatasının növbəti kollegiya iclasında "Dövlət büdcəsindən Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə və tabeliyində olan qurumlara ayrılan vəsaitlərin istifadəsinə dair auditin nəticələri haqqında" hesabat müzakirə olunub.

Palatadan AZƏRTAC-a bildiriblər ki, iclasda nəzarət tədbiri üzrə kollegiya qərarının layihəsi müzakirə edilərək təsdiq olunub. Həmin qərarın icrasını təmin etmək məqsədilə aidiyyəti dövlət qurumlarına təqdimat göndərilməsi və audit tədbirinin nəticələri barədə məlumatın Milli Məclisə təqdim olunması qərara alınıb.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 27 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, işğal altında olan Ağdam rayonunun Qaraqaşlı, Kəngərli, Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Enerji sahəsində əməkdaşlıq davam edir

*Əvvəli 1-ci səh.*

"Dayazsulu Abşeron"un HPBS üzrə müqavilə sahəsi Xəzər hövzəsinin hüdudları boyunca Abşeron yarımadasının cənubuna doğru uzanır. Həmin ərazidə suyun dərinliyi 40 metrədək dəyişir və potensial məhsuldar layın (kollektorun) dərinliyi 3000-5000 metr təşkil edir.

Saziş imzalanandan bir neçə ay sonra Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilib. Sazişə əsasən, müqavilədə "BP Eksploreyşn (Kaspian Si) Ltd" şirkətinin və SOCAR-ın hərəsi 50 faizlik iştirak payına malikdir. Bu sənəd 30 illik müddəti əhatə edir.

HPBS ratifikasiya olunandan dərhal sonra müqavilə sahəsində üçölçülü seysmik tədqiqat proqramının həyata keçirilməsi üçün hazırlıq işlərinə başlanmış və 2015-ci ilin dekabr ayında başa çatdırılmışdır. Proqram üzrə Ətraf Mühit və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi sənədinin ictimai müzakirələri aparılmışdır.

Üçölçülü seysmik tədqiqat proqramı 2016-cı il mayın 31-də başlanmış və dekabrın 27-də yekunlaşdırılmışdır. Bu tədqiqat 1300 kvadratkilometr ərazidən üçölçülü məlumatın əldə olunmasını əhatə etmişdir. Tədqiqat proqramı BP-nin qabaqcıl, patentləşdirilmiş Müstəqil Sinxron Mənbələr (Independent Simultaneous Source with Nodes - ISSNtm) texnologiyası vasitəsilə həyata keçirilmişdir.

Hasilatın Pay Bölgüsü Sazişi ərazisindən 2016-cı ildə əldə edilmiş üçölçülü məlumatların interpretasiyası və emalı 2017-ci ilin dördüncü rübündə sona çatdırılmışdır. SOCAR-la Perspektivlik haqqında Bildiriş imzalanmaqla BP-nin Abşeron yarımadasının dayazsulu hissəsində üç perspektiv ərazidə kəşfiyyat quyuları qazmaq öhdəliyi müəyyənləşdirilmişdir. Hazırda seçilmiş perspektiv ərazilərdə kəşfiyyat quyularının qazılması üçün planlaşdırma işləri aparılır.

Daha bir perspektiv struktur "Şəfəq-Asiman"dır. Bu blok Bakıdan təqribən 125 kilometr (78 mil) aralıda cənub-şərqdə yerləşir. Onu Xəzərdə "Şahdəniz" qaz-kondensat yatağından 60 kilometrlik, Səngəçal terminalından 145 kilometrlik məsafə ayırır.

"Şəfəq-Asiman" dənizin dərinsulu hissəsində yerləşir. Burada suyun dərinliyi 600-800 metr arasında dəyişir. Kollektorun dərinliyi 7000 metrə çatır.

Blok təxminən 1100 kvadratkilometr ərazini əhatə edir. Burada indiyədək heç bir geoloji kəşfiyyat işi aparılmamışdı.

SOCAR və BP arasında strukturun birgə geoloji kəşfiyyatı və işlənməsinə dair HPBS Bakıda 2010-cu ilin oktyabr ayında imzalanmışdır. HPBS-də BP və SOCAR-ın iştirak payları bərabərdir.

2012-ci ilin əvvəlində "Gilavar" seysmik tədqiqat gəmisinin mütəxəssisləri strukturda aparılan üçölçülü seysmik məlumatların əldə olunması proqramını başa çatdırmışlar. Sonra həmin məlumatların emalı aparılmışdır. Məlumatların interpretasiyası 2015-ci il başa çatdıqdan sonra ilk kəşfiyyat quyusunun planlaşdırılması işlərinə başlanmışdır. Bu istiqamətdə işlər davam edir.

BP-dən aldığımız məlumata görə, şirkət bir müddət əvvəl Azərbaycanda mövcud "Qobustan" HPBS-də 61 faiz iştirak payı alıb. Bu sövdələşmənin bir hissəsi olaraq, şirkət həmin müqavilə sahəsində daha dərin layların potensialını qiymətləndirmək məqsədilə bir geoloji kəşfiyyat quyusu qazacaq və həmin əməliyyatların operatoru olacaq. Quyunun 2019-cu ilin ikinci yarısında qazılması planlaşdırılır.

Xəzərdəki bu yataqlar neftmi, yoxsa qazmı verəcək? Mütəxəssislər müəyyən fikirlər söyləyirlər. Məsələn, onlar "Dayazsulu Abşeron"un neftlə, "Şəfəq-Asiman"ın isə qazla zəngin olacağını ehtimal edirlər. Lakin əsl həqiqət yaxın gələcəkdə başlanacaq qazma işlərindən sonra bəlli olacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Xarici diplomatlar Lənkəranın sosial-iqtisadi inkişafı və turizm potensialı ilə tanış olublar

Ölkəmizdə akkreditə olunmuş səfirlik və beynəlxalq təşkilatların rəhbərləri, onların xanımları Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə cənub bölgəsinə səfər çərçivəsində Astara rayonu ilə tanışlıqdan sonra noyabrın 28-də Lənkərana gəliblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycanda regionların inkişafı ilə yaxından tanış olmaq, o cümlədən cənub bölgəsində həyata keçirilən sosial-iqtisadi layihələr, habelə turizmin inkişafı ilə yerindəcə məlumat almaq məqsədilə həyata keçirilən səfərdə diplomatik korpusun 70-dək nümayəndəsi iştirak edib.

Diplomatların Lənkəranla tanışlığı Olimpiya İdman Kompleksindən başlayıb.

Qonaqlar kompleksdə idmançılarla söhbət ediblər.

Diplomatik nümayəndəliklərin rəhbərləri sonra Heydər Əliyev Xatirə parkına gəliblər. Parkın ərazisini gəzəndən sonra onlar Heydər Əliyev Mərkəzinin, Gənclər Mərkəzinin, tarix-diyarşünaslıq muzeyinin (Xan evi) eksponatları ilə tanış olublar.

Növbəti ünvan şəhərin Qala xiyabanı olub. Qonaqlar burada Lənkəranda istehsal olunan çay, çəltik, sitrus meyvələri və digər kənd təsərrüfatı məhsullarından, yerli ustaların sənətkarlıq nümunələri və uşaq rəssamlıq məktəbi yetirmələrinin əl işlərindən ibarət sərgilərlə, eləcə də rayonun turizm potensialını əks etdirən buklet və fotostendlərlə tanış olublar.

Rayonun bədii özfəaliyyət kollektivlərinin ifasında səslənən mahnılar və rəqslər, şəhər uşaq tərbiyə müəssisələri fidanlarının ifa etdikləri şən nəğmələr qonaqlarda xoş duyğular oyadıb.

Daha sonra qonaqlar "Boranı" restoranında çay dəstgahına dəvət ediliblər.

"Azərxalça" ASC-nin Lənkəran filialı ilə tanışlıq da diplomatik nümayəndəliklərin rəhbərlərində zəngin təəssüratlar yaradıb.

Çəltik emalı zavoduna gələn qonaqlar istehsal prosesini izləyib, işçilərlə görüşüblər. Diqqətə çatdırılıb ki, çəltikçilik rayonda aqrar sahənin aparıcı istiqamətlərindən birini təşkil edir. Rayonda çəltik əkininin həcmi ilbəil artır.

Səfirlik və beynəlxalq təşkilatların rəhbərləri Lənkəran Rayon Dövlət Aqrar İnkişaf Mərkəzində yaradılmış şəraitdən də məmnun qalıblar.

Rayonun İstisu qəsəbəsində "Yaşıl çay" MMC-nin çay plantasiyaları ilə tanışlıq da maraqlı keçib. MMC-nin rəhbəri Araz Yağubov təsərrüfatın qazandığı uğurlar barədə məlumat verərək bildirib ki, Lənkəran çayı tərkibinə və keyfiyyət xüsusiyyətlərinə görə həmişə fərqlənib. Sahələrin suvarılması müasir çiləmə üsulundan istifadə edilməklə həyata keçirilir. Təsərrüfatda xaricdən gətirilən ən müasir texnika və avadanlıqdan istifadə olunur.

İstisu və Sağlamlıq Mərkəzində yaradılmış şərait də diplomatik nümayəndəliklərin rəhbərlərində maraq doğurub. Məlumat verilib ki, yaxın aylarda tam gücü ilə istifadəyə veriləcək kompleksdə hotel, tibb mərkəzi, müxtəlif termal hamamlar fəaliyyət göstərəcək. Buradakı ikimərtəbəli tibb mərkəzi müasir avadanlıqlarla təchiz edilib. Müasir laboratoriya, rentgen və ultrasəs müayinələri üçün lazımi şəraitin yaradıldığı mərkəzdə elektroterapiya, fizioterapiya, jet masaj, maqnitoterapiya, hidroterapiya, hidrokolonterapiya, palçıq müalicəsi, mexanoterapiya otaqları var. Burada müalicə alanlar masaj və palçıq applikasiya otaqlarından istifadə edə bilərlər.

Qonaqların diqqətinə çatdırılıb ki, Lənkəran İstisu və Sağlamlıq Mərkəzində qan dövranı, sinir, sümük-əzələ sistemləri, birləşdirici toxumanın, tənəffüs orqanlarının, həzm sisteminin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozuntuları, dəri və dərialtı toxumanın və sidik-cinsiyyət sistemi xəstəliklərinin müalicəsi nəzərdə tutulub. Diplomatlar Hirkan qəsəbəsindəki sitrus bağları, Hirkan Milli Parkı və Xanbulançay dəryaçası ilə də tanış olublar.

Səfər çərçivəsində həmçinin Lənkəranın qida və kənd təsərrüfatı məhsullarının ixrac potensialı ilə bağlı təqdimatlar keçirilib.

# Sərhədçilər gələcək əlaqələrin perspektivlərini müzakirə ediblər



Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti ilə Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidməti arasında 2018-2019-cu illər üçün Tədbirlər Planına uyğun olaraq müvafiq fəaliyyətlər uğurla davam etdirilir.

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin Sərhəd Nəzarətinin rəisi general-mayor A.Xəlilovun dəvəti ilə cari ilin 27 noyabr tarixdə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidməti rəisinin müavini-Sərhəd Nəzarəti Departamentinin rəisi general-polkovnik İqor Şmotkinin rəhbərliyi ilə nümayəndə heyəti Azərbaycana səfərə gəlmişdir.

28 noyabr tarixdə Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik E.Quliyev tərəfindən Rusiya nümayəndə heyəti qəbul edilmişdir. Görüşdə ikitərəfli əlaqələrin vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmış, dövlət sərhədindən buraxılış məntəqələrində şəxslər, nəqliyyat vasitələri və yüklər üzərində etibarlı sərhəd nəzarətinin təşkil edilməsi, transsərhəd cinayətkarlığın təzahürləri olan qaçaqmalçılıq fəaliyyətləri, qanunsuz miqrasiya ilə mübarizə sahəsində əməkdaşlıq və qarşılıqlı əlaqələndirmənin davam etdirilməsi, təcrübə və məlumat mübadiləsinin əhəmiyyəti vurğulanmışdır.

Azərbaycan Respublikası hökuməti və Rusiya Federasiyası hökuməti arasında imzalanmış sazişə uyğun olaraq "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi" kimi irimiqyaslı infrastruktur layihənin həyata keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edən Samur çayı üzərindən yeni avtomobil körpüsünün tikintisi aparılan ərazidə sərhəd qurumları tərəfindən etibarlı sərhəd nəzarətinin təmin edilməsi məsələləri üzrə qarşılıqlı əlaqələndirmənin yüksək səviyyədə olması qeyd edilmiş, dövlət sərhədindən buraxılış məntəqələrində şəxslər və nəqliyyat vasitələri üzərində sərhəd nəzarətinin təkmilləşdirilməsinin, vətəndaşların dövlət sərhədindən keçmə prosedurlarının daha da sadələşdirilməsi ilə yanaşı, sərhəd təhlükəsizliyinin gücləndirilməsinin vacibliyi vurğulanmışdır.

Səfər çərçivəsində qonaqlar Heydər Əliyev Beynəlxalq Aeroportu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanında sərhəd nəzarətinin təşkili və xüsusiyyətləri ilə tanış olmuş, sərhəd nəzarəti bölmələrinin xidməti-döyüş fəaliyyətinin müasir tələblərə uyğun aparılması məqsədilə tətbiq olunan qabaqcıl sistem və texniki vasitələri nəzərdən keçirmişlər.

Azərbaycan və Rusiya nümayəndələri müsbət təcrübə mübadiləsini aparmış, gələcək əlaqələrin perspektivlərini müzakirə etmiş və sərhəd nəzarəti bölmələri arasında praktiki əməkdaşlıq tədbirlərinin davam etdirilməsinə dair razılıq əldə etmişlər.

***"Azərbaycan"***

# Həmkarlar ittifaqı işçilərinin maarifləndirilməsi işinə xüsusi önəm verilir

Noyabrın 28-də Bakıda Beynəlxalq Əmək Təşkilatının (BƏT), Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) dəstəyi ilə "Şərqi Avropada və Mərkəzi Asiyada həmkarlar ittifaqlarının maarifləndirilməsi: çıxarılan nəticələr və inkişaf yolları" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransı giriş sözü ilə AHİK sədrinin müavini Aqil Dadaşov açıb.

Konfransda çıxış edən AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev həmkarlar ittifaqlarının son dövrlər ənənəvi olmayan problemlərlə daha tez-tez qarşılaşdığını deyib. O bildirib ki, bu, həmkarlar ittifaqı işçisindən təşkilati-idarəçilik qabiliyyətini daha da təkmilləşdirməyi, sosial psixologiyanın, konfliktologiyanın, hüququn, politologiyanın, iqtisadiyyatın, maliyyə siyasətinin əsaslarını dərindən mənimsəməyi tələb edir. Digər tərəfdən, beynəlxalq institutlar dünya ictimaiyyəti qarşısında mühüm vəzifələr qoyur. Gələcəkdə gözlənilən proseslərdən qorunmaq üçün atılacaq addımların bu gün müəyyənləşdirilməsi ən vacib məsələlərdəndir. Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində, Layiqli Əməyin təmin edilməsi üzrə Dövlət proqramlarının yerinə yetirilməsində, BƏT-in 205-ci Tövsiyəsinin tətbiqində həmkarlar ittifaqlarına geniş önəm verilir. Sözsüz ki, bu vəzifələri həyata keçirmək üçün kadr hazırlığı məsələlərinə daha diqqətlə yanaşılmalıdır.

Səttar Möhbalıyev qeyd edib ki, həmkarlar ittifaqı liderləri və fəalları insanlarla ünsiyyət qurmaq üçün daim bacarıqlarını təkmilləşdirməli, ümumtəhsil və mədəni səviyyələrini yüksəltməlidirlər. Bu isə sosial texnologiyalara yiyələnmədən və müasir menecmentin üsul və metodlarını mənimsəmədən mümkün deyil. Müasir tədris və informasiya texnologiyalarından, aktiv tədris metodlarından istifadə, həmkarlar ittifaqı kadr və fəallarında daim yenilənmə motivasiyasının olması, fasiləsiz təhsil üçün şəraitin yaradılması, qabaqcıl dünya təcrübəsinin öyrənilib yayılması maarifləndirmə prosesində vacib olan elementlərdir. Ölkəmizdə bütün sahələrdə islahatların həyata keçirilməsi həmkarlar ittifaqlarında da vaxtaşırı islahatların aparılmasını gündəmə gətirib. Layiqli kadr ehtiyatları fondunun yaradılması və möhkəmləndirilməsi, seçkili həmkarlar ittifaqları orqanlarının tərkibinin gəncləşdirilməsi, orada qadınların sayının artırılması islahatların tərkib hissəsidir. Bu gün həmkarlar ittifaqı təşkilatlarının rəhbərlərinin qarşısına yeni tələblər qoyulur. Bu tələblərə isə peşəkar və məsuliyyətli həmkarlar ittifaqı liderləri və onların komandasının nüfuzu vasitəsilə cavab vermək mümkündür. Peşəkar kadrların hazırlanması, təcrübi biliklərə yiyələnmələri və onların bazar iqtisadiyyatına xas olan idarəetmə qabiliyyətlərinə malik olmaları üçün müvafiq işlərin həyata keçirilməsi lazımdır. Bu səbəbdən həmkarlar ittifaqı işçilərinin maarifləndirilməsi işinə xüsusi önəm verilir. Həmkarlar ittifaqlarında maarifləndirmə prosesi əsasən AHİK-in Əmək və Sosial Münasibətlər Akademiyası vasitəsilə həyata keçirilir. Əmək və Sosial Münasibətlər Akademiyasında təşkil edilən kurslar həmkarlar ittifaqının yeni seçilən seçkili orqanlarının rəhbərləri və üzvləri, fəalları, sahə həmkarlar ittifaqı aparatında çalışanlar və digər kateqoriyalara aid işçilər üçün nəzərdə tutulub. Hər il akademiyanın təşkil etdiyi kurslarda orta hesabla 800 nəfərə yaxın həmkarlar ittifaqı kadr və fəalları iştirak edirlər. Eyni zamanda, akademiyada hazırda 5 ixtisas üzrə 572 gənc təhsil alır. Ali təhsil müəssisəsini bitirən bu gənclər isə həmkarlar ittifaqı üçün potensial kadrlardır.

Sədr bildirib ki, AHİK 2009-cu ildən kiçik və orta sahibkarlıq müəssisələrində həmkarlar ittifaqı təşkilatlarının yaradılması üzrə pilot layihə həyata keçirib. Pilot layihəyə uyğun olaraq respublikanın bütün regionlarında mövzu ilə bağlı seminarlar keçirməklə həmkarlar ittifaqı liderləri maarifləndirilib və onlara bu sahədəki vəzifələr izah olunub. Bu işin müsbət nəticəsi kimi özəl müəssisələrdə həmkarlar ittifaqlarının yaradılmasını və üzvlərinin sayının artmasını qeyd etmək olar. AHİK uzun müddət idi ki, cəmiyyətimizin inkişafının müasir mərhələsinin xüsusiyyətlərini nəzərə alaraq Üçtərəfli Komissiyanın yaradılması üçün təşəbbüs qaldırır, təkliflər irəli sürürdü. Nəhayət, BƏT-in bilavasitə dəstəyi ilə həyata keçirilən maarifləndirmə tədbirlərini və sosial tərəfdaşlarla görülən işləri əlaqələndirmək məqsədilə 2016-cı ilin sentyabrında Azərbaycanda Sosial-İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiya yaradıldı və bu gün uğurla fəaliyyət göstərir. Təbii ki, AHİK tərəfindən həmkarlar ittifaqında aparılan maarifləndirmə işləri yekunda qarşımıza qoyduğumuz əsas məqsədlərin - işçilərin sosial əmək hüquqlarının qorunmasının, onların sağlamlığının və əməyinin mühafizəsinin həyata keçirilməsinə öz müsbət təsirini göstərməkdədir. Son beş ildə (2013-2018) 507 yeni həmkarlar ittifaqı təşkilatı yaradılıb, həmkarlar ittifaqı üzvlərinin sırasına 56 min 497 nəfər cəlb edilib. Bu gün həmkarlar ittifaqı təşkilatları olan müəssisələrdə işləyənlərin 95,5 faizi həmkarlar ittifaqı üzvləridir. AHİK və üzv təşkilatlar tərəfindən görülən işlər nəticəsində daxil olan ərizə və şikayətlərin 95,2 faizi müsbət həll edilib. Əmək hüquqlarının pozulması ilə əlaqədar son 5 ildə üzvlərin müraciətləri əsasında 97 dəfə məhkəməyə müraciət olunub. Bu müddətdə 983 nəfər öz işinə bərpa edilib. Maarifləndirilmə işləri həmkarlar ittifaqı təşkilatlarının sədrlərinin, onların ehtiyat qüvvələrinin, həmkarlar ittifaqı komitəsinin üzvlərinin, daimi komissiyalarının, fəallarının bilik və bacarıqlarının formalaşdırılmasına yönəldilməlidir. Yeni informasiya texnologiyalarının, sosial şəbəkələrin də imkanlarından lazımınca istifadə edilməlidir.

Konfransda daha sonra Beynəlxalq Əmək Təşkilatının nümayəndəsi Evelin Toc, Pan Avropa Regional Şurasının nümayəndəsi Anton Leppik və digərləri çıxış edərək tədbirin əhəmiyyətindən danışıblar. Bildirilib ki, Şərqi Avropada və Mərkəzi Asiyada həmkarlar ittifaqı fəallarının maarifləndirilməsi və inkişaf yolları genişləndirilməli, burada maraqlı tərəflərin fəaliyyətləri dəstəklənməlidir.

Konfrans öz işini üç gün davam etdirəcək.

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN APARATINDA 2018-ci İLİN DEKABR AYINDA VƏTƏNDAŞLARIN QƏBULU CƏDVƏLİ

| | Qəbul günləri |
|---|---|
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 6 |
| **Bahar Əvəz qızı MURADOVA** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İnsan hüquqları komitəsinin sədri | 19 |
| **Valeh Feyruz oğlu ƏLƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 10 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 3 |
| **Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 5 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 4 |
| **Hadi Musa oğlu RƏCƏBLİ** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 7 |
| **Arif Qafar oğlu RƏHİMZADƏ** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 24 |
| **İsa Əkbər oğlu HƏBİBBƏYLİ** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 20 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 26 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 10 |
| **Ülvi Zahid oğlu QULİYEV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 27 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 12 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 7 |
| **Aqiyə Həbib qızı NAXÇIVANLI** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 17 |
| **Səfa Abbas oğlu MİRZƏYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 5 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 4 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri | 14 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 18 |
| **Nizami Abdulla oğlu SƏFƏROV** Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 11 |
| **Adilə Ziyat qızı ABASOVA** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 25 |
| **İlqar İslam oğlu FƏRZƏLİYEV** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 6 |

**QEYD:** Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsində qəbul olunurlar.

| | |
|---|---|
| **Qəbula yazılma vaxtı:** | saat 9:00-dan 18.00-dək |
| **Qəbul vaxtı:** | saat 14:00-dan başlayır |
| **Qəbul günü qəbula yazılma:** | saat 12:00-da dayandırılır. |

Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır.

Azərbaycan Respublikası Milli Məclisinə qəbula dəvət olunanlar şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

| | |
|---|---|
| **Telefonlar:** | (012) 510-99-38 |
| | (012) 510-89-14 |
| | (012) 492-74-05 |

*Aparatın Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi*

# Oğuzlu gənclər vətənin müdafiəsinə hazırdırlar



*Böyük Qafqaz sıra dağlarına söykənən Oğuz rayonunun gəncləri hər zaman vətənpərvərliyi, nümunəvi davranışları ilə seçiliblər. Rayonun övladları döyüş əməliyyatlarında igidlik göstərib ad qazananlar sırasındadırlar. Hazırda buradakı Şəhidlər xiyabanında 74 nəfər oğuzlu gənc uyuyur.*

Respublikamızın hər yerində olduğu kimi, bu rayonda da şəhid ailələri həmişə dövlət qayğısı ilə əhatə olunurlar. Onların anım və doğum günləri mütəmadi olaraq ehtiramla anılır, məzarlarına ziyarətlər edilir.

Oğuz Rayon Gənclər və İdman İdarəsi də gənc nəslin vətənə məhəbbət, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə olunmasına ciddi diqqət yetirir. Paralel olaraq gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi, onlar arasında hüquq pozuntularının, narkomaniyanın və digər zərərli vərdişlərin profilaktikası sahəsində tədbirlərin həyata keçirilməsi də vacib məqamlardandır. İstedadlı gənclərin aşkar edilməsi, sahibkarlıq fəaliyyətlərinin dəstəklənməsi, sosial müdafiəyə ehtiyacı olanların, o cümlədən gənc ailələrin problemlərinin həllinə kömək göstərilməsi, kütləvi bədən tərbiyəsinin və idmanın inkişaf etdirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirakı, gənclər təşkilatlarının beynəlxalq əlaqələrinin qurulması istiqamətində vəzifələr uğurla yerinə yetirilir.

Təsadüfi deyil ki, ilin əvvəlindən başlayaraq rayonda 85 tədbir keçirilib. Bu tədbirlərdə 10 min 900 nəfərə yaxın uşaq, yeniyetmə və gənc iştirak edib.

Zona və respublika əhəmiyyətli yarışlarda idmançıların iştirakı yüksək səviyyədə təmin olunub. İlin əvvəlindən bu yarışlarda 201 nəfər iştirakçı təmsil olunub. Ümumilikdə idmançılar 2018-ci ilin 9 ayında respublika əhəmiyyətli yarışlarda fərdi və komanda şəklində 7 dəfə birinci yerə, 9 dəfə ikinci, 6 dəfə isə üçüncü yerə layiq görülüblər. Rayonun istedadlı gənclərinə və potensiallı idmançılarına respublika tədbirlərində və zona yarışlarında öz qüvvələrini sınamağa imkan yaradılır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Oğuz rayonu üzrə bölmə rəisi mayor Zaur Əliyev də bildirdi ki, gənclər arasında vətənpərvərlik hissinin artırılmasına xüsusi diqqət yetirilir. İl ərzində 4 dəfə müddətli həqiqi hərbi xidmətə çağırış keçirilib və çağırışçılar müvafiq hərbi hissələrə yola salınıblar. Çağırışdan yayınma halları müşahidə edilməyib.

Eyni zamanda bu ilin oktyabr, noyabr aylarında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Vətənin müdafiəsinə hazıram" adlı tədbir keçirilib.

Rayonda "Sərhədçi" hərbi oyunları da tez-tez təşkil olunur. Bu oyunlarda birmənalı şəkildə Oğuz rayonunun sərhədyanı kənd orta məktəblərinin iştirakı təmin edilir. Təsadüfi deyil ki, Oğuz rayon Baş Daşağıl kənd tam orta məktəbi rayon üzrə keçirilən yarışda 1-ci, zona yarışlarında isə 3-cü yerə sahib çıxıb.

Rayon ümumtəhsil müəssisələri şagirdlərinin arasında "Vətənin müdafiəsinə hazıram" devizi altında payız və yaz çağırışına həsr olunan poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi də keçirilib. Oğuz rayon yığma komandası rayon üzrə 1-ci, zona yarışlarında isə 2-ci yeri tutub. "Şahin" hərbi idman oyunlarında Oğuz şəhər 1 saylı tam orta məktəbi rayon üzrə 1-ci yeri, zona yarışlarında isə iştirak edərək uyğun yerlər tutmuşlar.

Ənənəvi olaraq bu tədris ilində də Fövqəladə Hallar Nazirliyinin keçirdiyi "Gənc xilasedici" yarışlarında Oğuz rayon məktəblərinin kütləviliyi təmin olunub və Oğuz şəhər 3 saylı tam orta məktəbi yarışlara qatılıb. Məktəbin şagirdləri rayon üzrə 1-ci, zona yarışlarında isə həvəsləndirici yer tutmağa nail olublar.

Bütün qeyd olunanlar isə şübhəsiz ki, Oğuzda gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə ciddi yanaşılmasından xəbər verir.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Paytaxtda dövlət başçısının tapşırıqları icra olunur

Bakı Şəhər İcra Hakimiyyətində 2018-2019-cu ilin payız-qış mövsümünə hazırlığın yekununa, qış aylarında icra qurumlarının və təsərrüfat xidmətlərinin qarşısında duran vəzifələrə həsr olunmuş paytaxt rayonlarının icra hakimiyyətlərinin başçıları, şəhər təsərrüfatı və xidmət sahələrinin rəhbərlərinin iştirakı ilə müşavirə keçirilmişdir.

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidmətinin məlumatına görə, müşavirədə dövlət başçısı cənab İlham Əliyevin tapşırıqlarına əsasən paytaxtda qış mövsümünə hazırlıq, şəhərdə genişmiqyaslı quruculuq və abadlıq işlərinin görülməsi, yeni infrastruktur layihələrin həyata keçirilməsi ilə bağlı xüsusi proqramın hazırlandığı bildirilmişdir.

Qeyd edilib ki, mövsümə hazırlıqla əlaqədar Bakı Şəhər İcra Hakimiyyətində xüsusi qərargah yaradılıb, tədbirlər planı təsdiq olunub. Eyni zamanda paytaxtın bütün rayonlarında, idarə və müəssisələrdə, həmçinin şəhər icra hakimiyyəti tərkibində fəaliyyət göstərən departament və təşkilatlarda, həmçinin "Azəriqaz" İB, "Azərişıq" ASC, "Azərsu" ASC, Bakı Su kanalı İdarəsi, "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi", Bakı Nəqliyyat Agentliyi tərəfindən də mövsümə hazırlıqla bağlı tədbirlər planları hazırlanıb, rayonlara şəhər icra hakimiyyətinin qış mövsümünə hazırlıqla bağlı tövsiyələri paylanılıb.

Müşavirədə havaların kəskin soyuq, qarlı-şaxtalı keçən günlərində qərargah üzvlərinin, bütün rayonların təsərrüfat xidmətlərinin xüsusi rejimdə çalışacağı, hər hansı ciddi hal yaranarsa, onun dərhal aradan qaldırılması məqsədi ilə operativ tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib. Əsas, köməkçi, məhəlledaxili yolların, səkilərin, obyektlərin qarşısının qardan vaxtında təmizlənməsi üçün bu işlərə cavabdeh təşkilatlar müəyyənləşdirilib, şəhər və rayonlardakı kommunal qurumların, digər idarə və təşkilatların sərəncamında olan xüsusi texnikalar saz vəziyyətə gətirilib, kifayət qədər inventar, qum və duz ehtiyatı tədarükü görülüb, işçilər arasında xüsusi iş qrafiki təsdiq olunub.

Müşavirədə binaların lift təsərrüfatlarının yenilənməsi məsələsinə xüsusi toxunulub. Bildirilib ki, dövlət başçısının paytaxtın lift təsərrüfatının yenilənməsi istiqamətində verdiyi tapşırıqlarının icrası ilə bağlı yeni layihə hazırlanıb, maliyyə vəsaiti ayrılıb və müəyyənləşdirilən tədbirlər fevral-mart aylarında reallaşacaqdır. Bu işlər Bakı Şəhər İcra Hakimiyyətinin nəzarətində saxlanılır.

Müşavirədə, həmçinin yaşayış binalarının dam örtüklərinin, blokların təmiri, ümumi istifadə yerlərinin şüşələnməsi, qanunsuz tikinti işləri aparılmasının qarşısının alınması, rayonlarda abadlıq işlərinin aparılması, sakinlərin istifadəsi üçün yeni abad məhəllələrin yaradılması ilə bağlı məsələlər müzakirə olunmuşdur.

Şəhərdə məişət tullantılarının daşınması ilə bağlı isə bildirilmişdir ki, tullantıların daşınması ilə bağlı 2 xarici şirkət tərəfindən təkliflər hazırlanıb və onların təklifləri təsdiq olunduqdan sonra bu sahədə geniş islahatlara başlanacaq, yeni konteynerlər alınacaq, mövcud konteynerlər isə təmir olunaraq istifadəyə veriləcəkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "AzerTelecom" şirkətinin kommersiya rəhbəri maliyyə texnologiyalarından (Fin Tech) danışıb

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi "AzerTelecom" şirkətinin baş kommersiya direktoru Samir Nuriyev Bakıda keçirilmiş "Dayanıqlı inkişaf üçün potensialları reallaşdıraq" adlı 9-cu Azərbaycan Mikromaliyyə Konfransı və "Azərbaycan regionlarında dayanıqlı mikrosahibkarlığın inkişafının sürətləndirilməsi layihəsi"nin rəsmi təqdimatına həsr edilmiş tədbirdə məruzəçi qismində iştirak edib.



Belə ki, konfrans çərçivəsində keçirilmiş "Mikromaliyyələşmənin rəqəmsallaşması: çətinliklər və imkanlar" adlı sessiyada çıxış edən Samir Nuriyev maliyyə texnologiyaları (FinTech), maliyyə xidmətlərinin rəqəmsal kanallar vasitəsilə təmin edilməsi, Blokçeyn texnologiyasının maliyyə əməliyyatlarında tətbiqi və üstünlükləri barədə danışıb. O, dünyada müasir maliyyə texnologiyalarının ölkələrin iqtisadiyyatlarının müxtəlif sahələrində tətbiqindən bəhs edib. Qeyd olunub ki, hazırda dünya miqyasında rəqəmsallaşma fonunda rəqəmsal maliyyə texnologiyalarına sürətli keçid baş verir. Yeni texnologiyaların tətbiqi, müştərilərə göstərilən maliyyə xidmətlərinin rəqəmsallaşması dayanıqlı inkişafın təmin edilməsində mühüm rol oynaya bilər.

Tədbirdə çıxış edən digər məruzəçilər də, öz növbələrində, Azərbaycanda rəqəmsallaşma və mikromaliyyələşmə mövzularında danışıblar. Çıxışlarda maliyyə xidmətlərinə çıxışı olmayan əhali qrupuna xidmət etmək üçün yeni imkanlar, maliyyə institutlarının mobil şəbəkə operatorları ilə əlaqələndirilməsi, rəsmi maliyyə institutlarının bütöv məhsul və xidmətlərini mobil pul agentlikləri vasitəsilə təklif etmək imkanları kimi mövzulara toxunulub, faydalı fikir mübadiləsi aparılıb.

22-23 noyabr tarixlərdə keçirilmiş konfrans Azərbaycan Mikromaliyyə Assosiasiyasının təşkilatçılığı ilə baş tutub.

"AzerTelecom" Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. Şirkət internetin topdansatışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiberoptik xətt xidməti), Data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), VoİP xidməti, DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.

***"Azərbaycan"***

# Artilleriyaçılarla komandir toplanışı keçirilir

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2018-ci ilin döyüş hazırlığı planına əsasən, Əlahiddə Ümumqoşun Ordunun, birlik və birləşmələrin artilleriya rəisləri, həmçinin artilleriya hərbi hissələrinin komandirləri və onların müavinləri ilə komandir toplanışı keçirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirlər zamanı raket və artilleriya bölmələri ilə döyüş şəraitinə uyğun təlim və məşğələlər keçirilir, döyüş hazırlığının yekunları və hərbi intizamın vəziyyəti təhlil edilir, eləcə də növbəti tədris mövsümü ilə əlaqədar tapşırıqlar verilir.

## Arsen BAQDASARYAN:

# "Evə qayıtmağıma kömək edin!"

Xəbər verildiyi kimi, 1994-cü il təvəllüdlü, 2014-cü il dekabrın 26-da Azərbaycan Respublikasının Ağdam rayonunda qoşunların təmas xəttində təxribata cəhd edərkən saxlanılmış və Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 5 may tarixli qətnaməsi ilə 15 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş erməni hərbi qulluqçu Arsen Eduardoviç Baqdasaryan "hamının-hamıya" prinsipi üzrə azadlığa buraxılması ilə bağlı Ermənistanın baş nazirinin səlahiyyətlərini icra edən Nikol Paşinyana müraciət göndərib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı noyabrın 28-də Arsen Baqdasaryan Azərbaycan KİV-inin suallarını cavablandırıb. Həmin müsahibəni oxuculara təqdim edirik.

**- Bildiyiniz kimi, Azərbaycan bütün hərbi əsirlərin və girovların "hamını-hamıya" prinsipi üzrə dəyişdirilməsi təklifi ilə çıxış edib. Lakin Ermənistan hökuməti nədənsə bunu etmək istəmir. Necə düşünürsünüz, Ermənistan bu humanist prinsipi niyə dəstəkləmir?**

- Mən Azərbaycan tərəfinin beynəlxalq təşkilatlar vasitəsilə rəsmi təklif göndərdiyini bilirəm. Bu barədə mənə Azərbaycanın səlahiyyətli orqanları məlumat veriblər. Lakin, təəssüf ki, erməni tərəfi mənim taleyimə biganə yanaşdı. Mənə göndərilən bildirişin mətnini oxuya bilərəm: "Arsen Eduardoviç, biz, Azərbaycan tərəfi beynəlxalq təşkilatlar vasitəsilə Ermənistana bütün hərbi əsirlərin və girovların "hamını-hamıya" prinsipi üzrə azad edilməsi barədə rəsmi təklif göndərmişik. Lakin, təəssüf ki, ordusunda xidmət keçdiyiniz erməni tərəfi Sizin taleyinizə biganə yanaşır". Axı, mən həyatımın iki il yarımını Qarabağ torpaqları uğrunda müharibəyə vermişəm, hərbçi sözləri ilə söyləsək, azərbaycanlılar üçün "düşmən", "rəqib" olmuşam və hər an məni öldürə bilərdilər.

**- Bizə məlum olduğu kimi, erməni tərəfi digər əsirlərin taleyi ilə də maraqlanır. Məsələn, Nikol Paşinyanın arvadı Anna Akopyan Karen Kazaryanın ailəsinə iki dəfə baş çəkib. Niyə məhz Sizə bu cür biganəlik göstərilir?**

- Ona görə ki, digərləri Ermənistan ərazisində doğulublar, mən isə keçmiş DQMV-nin paytaxtı Stepanakertdə - indiki Xankəndidə. Ermənistan üçün qarabağlıların heç bir dəyəri yoxdur, biz onlar üçün "Qarabağ eşşəkləriyik". Əgər Ermənistan məni bu respublikanın vətəndaşı hesab edirsə, onda erməni tərəfi Azərbaycanın müraciətinə müsbət cavab verməli idi.

**- Siz artıq kifayət qədər uzun zamandır ki, buradasınız. Sizin Nikol Paşinyana məktubla müraciət etməyiniz üçün suyu daşıran son damla nə oldu?**

- İlk növbədə, əlverişli siyasi mühit. 2016-cı ildən Azərbaycan tərəfi bütün hərbi əsirlərin və girovların "hamını-hamıya" prinsipi üzrə azad edilməsi təşəbbüsü ilə çıxış edir. O zaman "Qarabağ klanına" rəhbərlik edən Serj Sarkisyan hakimiyyətdə idi. Necə deyərlər, həbsxana insanı dözümlülüyə öyrədir və bu səbəbdən mən səbirlə gözləyirdim. İndi, Serj Sarkisyan və komandasının devrildiyi vaxtda, mən səlahiyyətli orqanlara mənə kömək göstərilməsi və Nikol Paşinyana xahişlə müraciət etməyim üçün buraya KİV nümayəndələrinin dəvət edilməsi barədə müraciət etməyə qərar verdim. Əslində, Azərbaycan tərəfi bu müraciəti göndərmək məcburiyyətində deyildi, axı, mən onların - Ermənistanda iyirmi ildən çoxdur təcavüzkar ölkə və humanizm göstərməyən tərəf kimi qələmə verilən Azərbaycanın düşməni idim. Əsl həqiqətdə isə, Azərbaycan tərəfi mənə qarşı humanizm nümayiş etdirir. Bəs erməni tərəfinin humanizmi harada qaldı? Bunu mənə kim izah edə bilər?

**- Azərbaycan tərəfinin təşəbbüsünü dəstəkləməsi üçün KİV vasitəsilə Ermənistan rəhbərliyinə nə söyləmək istərdiniz?**

- Mən yalnız onu demək istəyirəm ki, əgər Nikol Paşinyan və onun həyat yoldaşı Anna Akopyan həqiqətən də öz xalqının qayğısına qalırlarsa, onda qoy Dilqəm Əsgərovu, Şahbaz Quliyevi və əsgər Elnur Hüseynzadəni azad etsinlər, Azərbaycan isə, öz növbəsində, doğmalarımız və yaxınlarımızla görüşmək üçün bizi sərbəst buraxır. Düşünürəm ki, erməni xalqı ölkə hakimiyyətindən Azərbaycan tərəfinin təşəbbüsünə müsbət cavab verilməsini tələb etməlidir.

**- Ermənistanda söz yayılıb ki, guya sizi söylədiklərinizi vərəqdən oxumağa məcbur edirlər. Bununla bağlı nə deyə bilərsiniz?**

- Söylədiklərimin hamısı öz fikirlərimdir. Mənə heç kim işgəncə verməyib və bunları deməyə məcbur etməyib. Hətta kameranı da çevirə bilərsiniz ki, divarlarda əvvəlcədən hazırlanmış heç bir mətnin olmadığı aydın görünsün. Görürsünüz, mən hər dəfə üzümü sual verən jurnalistə tərəf tuturam və təkcə kameraya deyil, həm də onun gözlərinə baxıram. Mən diktə altında heç bir söz söyləmirəm.

**- Yeri gəlmişkən, qoy bu sual sizin üçün standart səslənməsin. Sizin burada saxlanılma şəraitiniz necədir? Hər hansı xahişiniz varmı?**

- Mənim bir tək xahişim var - evimə qayıtmağıma kömək edin! Saxlanılma şəraitimlə bağlı deyə bilərəm ki, heç bir şikayətim yoxdur. Hətta mənə Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə doğmalarımla yazışmaq və "Skype"la danışmaq imkanı verilib. Səhhətimlə bağlı da heç bir problemim yoxdur. Dörd il ərzində, şükürlər olsun, bir dəfə də xəstələnməmişəm. Doğrudur, burada bizə ev yeməkləri vermirlər, amma qidalanma ilə bağlı hər şey normaldır. Hətta bir az kökəlmişəm.

Bundan başqa, mənə kitab oxumağa və sifariş etməyə də icazə verilib. Bu müddət ərzində rus və ingilis dillərində biliklərimi təkmilləşdirmişəm. Hazırda Çin dilini öyrənirəm.


*Təkrar*

## Bakı Şəhər İcra Hakimiyyəti "Yaşıl Teatr" Bakı Konsert Kompleksi aşağıdakı tədbirlərin həyata keçirilməsinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**
**LOT-1** - 2019-cu il təqvim dəstlərinin satın alınması
**LOT-2** - Xarici qonaqların Bakı şəhərinə səfəri ilə bağlı suvenir dəstlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 100 (bir yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Sona Vəlixanlı, 1 ünvanından əldə edə bilərlər (əlaqələndirici şəxs: Cavadov İlqar Əziz oğlu, tel: 492-46-34).

**"Kapital Bank": 1 saylı Səbail filialı**
**Kodu: 200059**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AİİBAZ2X**
**"Yaşıl Teatr" Bakı Konsert Kompleksi**
**H/H: AZ05AIIB33070019443501623105**
**VÖEN: 1700779931**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1(bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **17 dekabr 2018-ci il saat 18:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə **25 dekabr 2018-ci il saat 17:00-a** qədər "Yaşıl Teatr" Bakı Konsert Kompleksinə (ünvan: Sona Vəlixanlı küç.,1) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri **26 dekabr 2018-ci il saat 11:00-da** yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına "Azərsu" ASC-yə məxsus korporativ elektron poçt sisteminin (mail.azersu.az) kiberhücumlardan (SPAM) qorunması və elektron poçt sisteminin quraşdırıldığı server avadanlıqlarında informasiya təhlükəsizliyinin təmin olunması üçün serverdə quraşdırılmış "Barracuda Spam Firewall 400VX" proqram təminatının 2019-cu il lisenziya müddətinin artırılmasının satın alınması məqsədilə

### *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, telefon: 431 47 67/2288) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 03 dekabr 2018-ci il saat 15:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda 04 dekabr 2018-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsi

### *açıq tenderə dəvət edir*

**Tender 3 LOT üzrə keçirilir:**
**LOT - 1** Maşın və mexanizmlər üçün ehtiyat hissələrinin satın alınması.
**LOT - 2** Əsaslı və cari təmir üçün tikinti materiallarının satın alınması.
**LOT - 3** Qum-çınqıl məmulatlarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə 55 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu İmişli rayonu Qaradonlu kəndində yerləşən Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsindən (əlaqələndirici şəxs: Ə.Nəsirov, telefon: 2-12-62) ala bilərlər.

**Təşkilat: Mərkəzi Muğan KİI**
**Hesab: İmişli YXO; AZ49AIIB32051019446700201167**
**VÖEN: 5500116521**
**Bank: "Kapital Bank"ın İmişli filialı**
**Kodu: 200673**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T; BIK AİI BAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü quvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti ) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 07 yanvar 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 16 yanvar 2019-cu il saat 17:00-a qədər İmişli rayonu, Qaradonlu kəndində yerləşən Mərkəzi Muğan Kollektorlaının İstismarı İdarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 17 yanvar 2019-cu il saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına Xüsusi şəraitdə işləyən işçilərin yeməklə təmin edilməsi xidmətinin satın alınması məqsədilə

### *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: satınalmalar üzrə mühəndis Aysel Abdullayeva, aysel.abdullayeva@azersu.az +994124314767 (2261)) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 06 dekabr 2018-ci il saat 16:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda 07 dekabr 2018-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

### "Azərenerji" ASC 2018-2021-ci illər üçün Keyfiyyət və ətraf mühitin idarə olunması İSO 9001:2015 və 14001:2015 Beynəlxalq Standartlarının İdarəetmə Sistemlərinin Sertifikatlaşdırılması məqsədilə auditin keçirilməsinə dair xidmətlərin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar (012) 490-09-27 / (050) 250-35-07 telefon nömrələri ilə əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 07.12.2018-ci il saat 16:00-dək qəbul olunur.

**Əlaqələndirici şəxs: Elçin İsmayılov.**

***Tender komissiyası***

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


## A L L A H   R Ə H M Ə T   E L Ə S İ N !

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri: Eldar Quliyev, Tahir Süleymanov, Mahir Aslanov, Novruzəli Aslanov, Hüseynbala Mirələmov, İqbal Məmmədov, Elçin Quliyev, Eldəniz Səlimov, Cavanşir Paşazadə, Aydın Hüseynov və Milli Məclis Aparatının əməkdaşları Vilayət Əlizadə, Zahid Abbasov, İsa Hüseynov, Məhəmməd Gülməmmədov Milli Məclis Aparatı Ümumi şöbəsinin müdiri Təlatüm Quliyevə əzizi

**İLQAR CABBAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Həmkarlar İttifaqı Komitəsinin sədri Rafael Qafarov Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İsmayıllıdan Mirdaməd Sadıqov ailəsi ilə birlikdə Milli Məclis Aparatı Ümumi şöbəsinin müdiri Təlatüm Quliyevə əzizi

**İLQAR CABBAROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Şəhər Məhkəməsinin sədri Zeyqəm Hüseynov Bakı şəhəri Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarova anası

**PÜSTƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ombudsman Elmira Süleymanova Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ombudsman Elmira Süleymanova və aparatın əməkdaşları iş yoldaşları Lalə Əzimovaya atası

**AĞANƏCƏF ƏZİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ombudsman Elmira Süleymanova Milli Məclis Aparatı Ümumi şöbəsinin müdiri Təlatüm Quliyevə əzizi

**İLQAR CABBAROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Lətif Hüseynov Milli Məclis Aparatı Ümumi şöbəsinin müdiri Təlatüm Quliyevə əzizi

**İLQAR ZEYNAL OĞLU CABBAROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin rektorluğu Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

M.Ə.Əfəndiyev adına 2 N-li şəhər Klinik Xəstəxanasının kollektivi şüa-diaqnostika həkimi Arzu Ağalarovaya atası

**ƏLƏDDİN AĞALAROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bərdə Rayon Məhkəməsinin sədri Məhərrəm Allahverdiyev və məhkəmənin kollektivi Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarova anası

**PÜSTƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclis Aparatı Ümumi şöbəsinin müdiri Təlatüm Quliyevə əzizi

**İLQAR CABBAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ənvər Seyidov ailəsi ilə birlikdə Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin rektorluğu Milli Məclis Aparatı Ümumi şöbəsinin müdiri Təlatüm Quliyevə əzizi

**İLQAR ZEYNAL OĞLU CABBAROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin rektorluğu və professor-müəllim heyəti Azərbaycan Təhsil Şurasının fəxri sədri, professor

**ƏJDƏR AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi şöbə müdiri, professor

**HƏSƏN ƏLİBƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarova anası

**PÜSTƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Salyan Rayon Məhkəməsinin sədri Əlövsət Paşayev və məhkəmənin kollektivi Bakı şəhəri Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarova anası

**PÜSTƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan Apelyasiya Məhkəməsinin kollektivi Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarova anası

**PÜSTƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8399
Sifariş 3540